

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 2 milyonuncu vətəndaş: DOST MƏRKƏZİ




3

№ 015 (6940)

SƏS

26 yanvar 2024-cü il.
Qiymәti 60 qәpik

# Məhəmməd Füzulinin 530 illiyi qeyd ediləcək



2

*Prezidenti İlham Əliyev sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.*

# Qərəz platforması olan MARİONET QURUM




3

## Qisas qiyamətə qalmadı: Daşaltı əməliyyatı



7

## İdman, yoxsa fiziki işgəncə - ÇARƏ NƏDİR?



8

## Böyük ziyalılar yetirən ulu torpaq



11

## Bizdən çox dayəsinə oxşayan uşaqlar...



12

## Məsləhətdir ki, uşaqlarla bərabər oxuyaq...



7

# Məhəmməd Füzulinin 530 illiyi qeyd ediləcək



***Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyi qeyd ediləcək. SİA xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.***

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

Məhəmməd Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər.

Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur. Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# "Son 20 il ərzində Azərbaycan dinamik inkişaf edən dövlətə çevrilib"

*Bolqarıstan mətbuatı Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərindən yazıb*



факти

Азербайджан в навечерието на предсрочните президентски избори

азербайджан - президент - избори

*Материалът е предоставен от посолството на Азербайджан в София*

Снимка: Посолство на Азербайджан

Милен Ганев
Главен редактор във Fakti.bg

**ФАКТИ** *публикува мнения с широк спектър от гледни точки, за да насърчава конструктивни дебати.*

Предсрочните президентски избори в Азербайджан



Online Bulgarian Network

/КРОСС/ Предсрочните президентски избори в Азербайджан ще се проведат на 7 февруари 2024 г. вместо през април 2025 г., когато бяха предвидени. Това ще бъдат първите избори, които ще обхванат цялата територия на страната след възстановяването на суверенитета и териториалната цялост на освободените територии в и около азербайджанския регион Карабах миналата година.

Високата популярност на действащия президент Илхам Алиев, която се дължи най-вече на решителната победа във Втората карабахска война, както и на постоянния икономически растеж на Азербайджан, а също и на предприетите забележителни стъпки на международната сцена, разсейва съмненията относно успешното му преизбиране. В свое скорошно интервю за местни телевизионни канали президентът Алиев посочи, че предстоящите предсрочни избори ще поставят началото на нова ера, белязана от пълното освобождаване на териториите на Азербайджан, останали под арменска окупация в продължение на 30 години.

***Bolqarıstan mediasında bu il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin mahiyyətinə və səbəblərinə dair materiallar dərc olunub.***

Ölkəmizin Bolqarıstandakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, yerli mətbu orqanlarında yayılan məlumatlarda növbədənkənar prezident seçkilərinin keçirilməsinin əsas səbəbi kimi onun Azərbaycanın bütün ərazisini əhatə edəcək ilk seçkilər olacağı göstərilir. Diqqətə çatdırılır ki, Vətən müharibəsində qazanılmış Qələbənin, Azərbaycanın iqtisadi yüksəlişinin və beynəlxalq uğurlarının xalqın yürüdülən siyasi xəttinin davam etdirilməsinə səs verəcəyini göstərir.

Yazılarda bu seçkilərin Azərbaycanın ərazi bütövlüyünün və bütün torpaqları üzərində suverenliyinin bərpası ilə əlamətdar olan yeni bir mərhələnin əsasını qoyacağı vurğulanır, son 20 il ərzində Azərbaycanın dinamik inkişaf edən dövlətə çevrildiyi, müxtəlif sahələrdə böyük uğurlar qazandığı bildirilir.

Materiallarda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən, "yaşıl enerji"yə keçid və regional bağlantıların inkişafı istiqamətində həyata keçirdiyi genişmiqyaslı fəaliyyətdən, həmçinin əldə olunan səmərəli nəticələrdən danışılır.

# Medianın İnkişafı Agentliyində maliyyə yardımı göstərilən onlayn media subyektlərinin rəhbərləri ilə görüş olub

Yanvarın 25-də Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov 2024-ci ilin birinci yarımilliyi üzrə maliyyə yardımı göstərilən onlayn media subyektlərinin rəhbərləri ilə görüşüb.

MEDİA-dan bildiriblər ki, görüşdə çıxış edən Əhməd İsmayılov maliyyə yardımının göstərilməsində əsas məqsədin onlayn media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, həmçinin dövlət və cəmiyyət üçün əhəmiyyət daşıyan layihələrin həyata keçirilməsi olduğunu deyib. Bu istiqamətdə qarşıya qoyulan hədəflərə çatmaq üçün müqavilə üzrə öhdəliklərin tam icra olunmasının, xüsusilə maliyyə yardımına dair hesabatlılığın vaxtında təmin edilməsinin zəruriliyi vurğulanıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Diqqətə çatdırılıb ki, maliyyə yardımı göstərilən veb-saytların infrastrukturu gücləndirilməli, dil imkanları genişləndirilməli, təhlükəsizliyi tam təmin edilməlidir.

Görüş zamanı onlayn media subyektlərinin rəhbərləri tərəfindən bildirilib ki, ötən dövr ərzində maliyyə yardımının göstərilməsi nəticəsində bir çox veb-saytların texniki problemləri həll edilib. Bir sıra saytlar tamamilə yeni tərtibata keçib, habelə müvafiq media subyektlərində fəaliyyət göstərən jurnalistlərin əmək münasibətlərinin nizama salınması təmin olunub. Görüş mövzu ətrafında müzakirələrlə davam edib.

# Gürcü politoloq: "Azərbaycanın regionda liderliyini qəbul edə bilməyən qüvvələr ona qarşı təxribatlar törədirlər"

***Hazırda Azərbaycana qarşı çox ciddi, mürəkkəb və məkrli proseslər gedir. Avropa Şurası Parlament Assambleyasının Azərbaycana qarşı atdığı addım buna bariz nümunədir. Lakin biz, ilk növbədə, bunun haradan qaynaqlandığını və nəyə görə baş verdiyini bilməliyik. Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri, politoloq Levan Mamaladze söyləyib.***

O bildirib ki, Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, Qarabağ məsələsinin birdəfəlik həlli bəzi qüvvələri, dövlətləri narahat edir. Çünki imperialist dövlətlər bu münaqişələri bilərəkdən yaradırlar. Münaqişələr yaratmaqla, xalqları qarşı-qarşıya qoymaqla onlar bəzi ölkələrə təzyiq göstərmək istəyirlər. Azərbaycan dövlətinin bu addımı onların Cənubi Qafqazda manevr imkanlarını məhdudlaşdırıb. Baxmayaraq ki, necə deyərlər, "qatar artıq gedib", amma yenə də Qərb dövlətləri bununla barışa bilmir və ona görə də müxtəlif vasitələr, yollar ilə Azərbaycana təzyiq göstərməyə çalışırlar.

Politoloq bildirib ki, hazırda regionda sülh prosesi gedir. Ermənistan rəhbərliyi başa düşür ki, ötən illər ərzində onlar heç nəyə nail ola bilmədilər, "böyük Ermənistan" ideyası iflasa uğradı və ölkə çox ciddi itkilərlə üzləşdi. İndi Ermənistan tərəfi özü də görür ki, Qafqazda sülh hər üç ölkənin (Azərbaycan, Gürcüstan və Ermənistan) maraqlarına xidmət edir. Ona görə də Azərbaycan ilə sülh müqaviləsini imzalamaq istəyir. Çünki başa düşürlər ki, hamıya sabitlik və sülh lazımdır. Lakin, bəzi üçüncü qüvvələr başa düşürlər ki, bundan sonra Azərbaycan daha da inkişaf edəcək. Ona görə də Azərbaycanın sərbəst hərəkətini, regionda liderliyini qəbul edə bilmirlər. Onlar regionda öz təsirlərini itirməmək üçün yenə də müxtəlif yollarla sabitliyi pozmağa çalışırlar. Bunun üçün bir tərəfi sıxışdırır, digər tərəfi silahlandırır və ya başqa cür yardımlar edirlər. Ona görə də qətiyyətlə demək olar ki, Azərbaycanın AŞPA-da təzyiqə məruz qalmasının əsas səbəbi budur.




"Nəzərə almaq lazımdır ki, ABŞ regionda bəzi təsir imkanlarını itirib, ona görə də Fransa hərəkətə keçib. Bu da səbəbsiz deyil. ABŞ-da olduğu kimi, Fransada da güclü erməni lobbisi var. Baxmayaraq ki, bu lobbi özü kiminsə əlində bir vasitədir, lakin hərdən onların da maraqlarını nəzərə alırlar", – deyə Mamaladze vurğulayıb.

Mərkəz rəhbəri hesab edir ki, AŞPA-nın bu qərarı Fransa Milli Assambleyasının, prezident Makronun anti-Azərbaycan bəyanatlarının davamıdır. Avropanın bəzi ölkələri də bu işdə Fransaya dəstək verir və güclənən Azərbaycana qarşı çıxış edirlər. Azərbaycan tərəfi çox düzgün addım ataraq AŞPA-dakı fəaliyyətini dayandırdı. Əslində, bu təşkilat elə də ciddi təsir gücünə malik deyil, sadəcə olaraq, demokratiya, insan hüquqlarının müdafiəsi adı altında yaranmış bir təşkilatdır.

Bu gün Avropanın əvvəlki cəlbediciliyini itirdiyini deyən politoloq diqqətə çatdırıb: "Bu gün Gürcüstan da Avropa ailəsinə daxil olmağa çalışır. Lakin Avropa artıq bizim əvvəl gördüyümüz, bildiyimiz Avropa deyil, o, özünün əvvəlki qiymətini, dəyərini itirib. Ona görə də çalışmalıyıq ki, davamlı sülh müqaviləsi imzalansın və biz özümüz öz gücümüzə inkişaf edə biləк. Gürcüstan da bu işdə mühüm rol oynamalıdır və Tbilisi bunun üçün səylərini göstərməyə hazırdır. Lakin həmin qüvvələr bunu istəmirlər. Çünki onlar yaxşı başa düşürlər ki, sülh müqaviləsi imzalansa, Qarabağ məsələsi tamamilə bağlanacaq və əsrlər boyu gündəliyə gəlməyəcək".

Yaxın günlərdə keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan xalqının doğru seçim edəcəyini əminliyini bildirən L.Mamaladze vurğulayıb ki, rəsmi Bakı həlli mümkünsüz görünən problemləri aradan qaldırıb və nüfuzunu özünə qaytarıb. Tezliklə xalqın düzgün seçimi sayəsində Azərbaycan dövləti daha da möhkəmlənəcək və çiçəklənəcək.

# Qərəz platforması olan MARİONET QURUM

***Avropa Şurası Parlament Assambleyasının ölkəmizə qarşı məlum qərəzli qərarına görə Azərbaycan nümayəndə heyətinin Bəyanat yayaraq, həmin qurumla ölkəmizin əməkdaşlığını və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırması barədə qərar qəbul etməsi heç də təsadüfi və səbəbsiz deyil. Bu, ilk növbədə AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya, islamofobiya mühitinin olması ilə əlaqədardır. Digər tərəfdən də Azərbaycana qarşı haqsız, ədalətsiz, ikili yanaşma, qərəzli mövqe sərgiləndiyi bir təşkilatla, özü də heç bir təsir mexanizmi olmayan, ermənipərəst və çirkin niyyətlilərin dominantlıq etdiyi bir təşkilatla ölkəmizin əməkdaşlığının da, həmin təşkilatda iştirakının da dayandırılması tamamilə məntiqi və tələb olunan, gözlənilən doğru addım hesab olunur.***

### Nümayəndə heyətimizin sessiyanı yarımçıq tərk etməsi tərs şillə effekti verdi

Bəyanatı səsləndirdikdən sonra Azərbaycanın nümayəndə heyətinin sessiyanı yarımçıq tərk etməsi də təsadüfi sayıla bilməz. Əlbəttə ki, bu addım tamamilə yerində atılan addımdır və Azərbaycana qərəzli münasibət sərgiləyənlər üçün çox kəskin və ciddi mesajdır. Daha dəqiq desək, Azərbaycanın nümayəndə heyəti məhz sözügedən bəyanatı səsləndirdikdən sonra sessiyanı yarımçıq tərk etməklə, həmin qurumun da, orada iştirakın da, əməkdaşlığın da bundan sonra mənasız olması qənaətini iştirakçılara çatdırmış oldu. Çatdırmış oldu ki, ümumiyyətlə, öz mövqeyimiz bildirilmədiyi, Azərbaycan reallıqları Avropa ailəsinin diqqətinə çatdırılmadığı və lazım gələndə müdafiə də edilmədiyi halda AŞPA bizə nə maraqlı görünmür, nə də heç lazım da deyil. Ələlxüsus da, Fransa, eləcə də ona qoşulan Almaniyanın da ölkəmizə qarşı qərəzli mövqeyi və onların tandem şəklində çıxış etmələri fonunda bu qurumun bizim əleyhimizə olmasından sonra orada iştirakın maraqsız olması da sessiyanı tərk etməklə diqqətə çatdırılmış oldu. Sözsüz ki, ermənidən betər erməni olan Fransa prezidenti Emmanuel Makron və ondan heç də geri qalmayan almaniyalı deputat Frank Şvabenin də bu çirkin təşəbbüsün, ölkəmizə qarşı qərəzin önündə getməsi fonunda Azərbaycan nümayəndə heyətinin öz bəyanatını səsləndirdikdən sonra sessiyanı tərk etməsi elə fransalıların, almanların liderlərinin də, onların dəyirmanına su tökənlərin də üzünə vurulan tərs şillə effekti kimi təəssürat yaratdı.

TƏHLİL

### Bəyanatla bir daha bildirildi ki, Azərbaycanla diktə dili ilə danışmaq olmaz

Nümayəndə heyəti öz bəyanatı ilə bir daha nümayiş etdirdi ki, heç bir beynəlxalq təşkilat, heç bir ölkə Azərbaycanla diqtə dili ilə danışa bilməz. Doğrudur, bu barədə dəfələrlə bildirilib, bəyan edilib. Hətta ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyev öz çıxışlarında, öz müsahibələrində dəfələrlə bunu bütün dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Dövlət başçımız dəfələrlə qeyd edib ki, Azərbaycanın milli maraqları hər şeydən öndədir və eləcə də ölkəmiz haqq yolunda, doğru yoldadır və bizi bu yoldan döndərmək, yaxud da bizimlə diqtə dili ilə danışmaq mümkün deyil. Görünür, AŞPA buna bir daha əmin olmalı imiş və ümid edirik ki, həmin qurumun ölkəmiz barədə gəldiyi ədalətsiz qərardan sonra nümayəndə heyətinin bəyanatı belə bir əminlik üçün kifayət edər, əgər həqiqətən də orada əleyhimizə olanlar özlərini heç olmasa bundan sonra görməməzliyə, eşitməməzliyə vurmasalar.

### Etimadnamənin ratifikasiyasından imtina AŞPA və Avropa Şurası hakimiyyəti üçün ciddi zərbə deməkdir

Sözsüz ki, Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin ratifkasiysınadan imtina AŞPA hakimiyyəti üçün də, Avropa Şurası hakimiyyəti üçün də ciddi zərbə deməkdir və ağır nəticələri də gözləniləndir. Bu barədə də xəbərdarlıq olunub və Azərbaycanın AŞPA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Monitorinq Komitəsinin qərarına etiraz məktubunda bunu xüsusilə qeyd edib. "Nümayəndə heyətimizin etimadnaməsinin ratifikasiyasından imtina AŞPA-nın və ümumilikdə Avropa Şurasının hakimiyyətinə ciddi zərbə olacaq və onun ağır nəticələrinə görə məsuliyyət bu dar düşüncəli addımın təşəbbüskarlarının üzərinə düşür", deyə nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib və bununla da Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti özünün daha bir mesajını da çatdırıb. Bununla hətta vurğulayıb ki, ağır nəticələrə səbəb olacaq məlum addımın məsuliyyəti elə həmin addımın təşəbbüskarlarının üzərindədir, cavabdeh də onlar özləridirlər.

### Azərbaycanın nümayəndə heyətinin səsinin dondurulmasına məntiqi cavab verildi

Azərbaycan nümayəndə heyətinin səsinin dondurulması ilə bağlı qaldırılan təşəbbüsün, məhz qanunun aliliyi və insan haqları ilə məşğul olan bir təşkilat üçün utancverici olması fonunda AŞPA-dakı nümayəndə heyətinin həmin təşkilatda öz fəaliyyətini qeyri-müəyyən müddətə dayandırması tamamilə anlaşılan və eyni zamanda məntiqidir. Özü də Azərbaycanın nümayəndə heyətinin bəyanatında konkret və ciddi arqumentlərlə dolu olan bir yanaşma öz əksini tapdığı da diqqətdən yayınan deyil. Nümayəndə heyəti tərəfindən verilən bəyanat qanunun aliliyini nəzərə almağın, haqqın, ədalətin təmin edilməsinin, elə bu fonda da Azərbaycanın milli maraqlarının qorunmasının vacibliyini ön plana çıxarır və bu, ilk növbədə də məhz AŞPA adlı bir beynəlxalq quruma xatırladılır. Xatırladılır ki, işğala, təcavüzə məruz qalan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan, əraziləri darmadağın edilən, vəhşiliklə, barbarlıqla qarşılaşan Azərbaycan tərəfidir. Diqqətə çatdırılır ki, uzun illər boyu haqları tapdalanan, haqsızlığa məruz qalan biz olmuşuq və bizə qarşı belə bir ədalətsiz yanaşma yalnız qərəzin təzahürüdür və belə bir qərəzli qurum Azərbaycan üçün heç də lazımlı ola bilməz.

### AŞPA-da anti-Azərbaycan fəaliyyətə qarşı rəsmi Bakıdan gözlənilən adekvat addım

Əlbəttə ki, əvvəla, ölkəmizə qarşı məlum münasibətdən sonra Azərbaycanın Avropa Şurasında qalmasının, yaxud da hansısa qüvvələrin maraqlarına xidmət edən bir qurumda fəaliyyətini davam etdirməsinin heç bir mənası da yoxdur. Mənasız şəkildə fəaliyyət bizim nəyimizə lazımdır axı? Özü də AŞPA-dakı nümayəndə heyətinin həmin təşkilatda öz fəaliyyətini qeyri-müəyyən müddətə dayandırması ilə kifayətlənmək də lazım deyil. Bəyanatın ardınca ilk növbədə üzvlük haqqının ödənilməsi də dayandırılsa tam yerinə düşər və sözügedən təşkilat artıq öz hesabını getmiş olar. Bunun da ardınca Azərbaycanın nümayəndə heyəti, Avropa İnsan Haqları Məhkəməsindəki hakimimiz, Nazirlər Komitəsindəki səfirimiz geri çağırılsa, Avropa Şurası Parlament Assambleyası vəziyyətin nə dərəcədə ciddi olduğunun fərqində olmuş olar. Həm də onun fərqində olar ki, bizim üçün, Azərbaycan üçün AŞPA deyilən qurum artıq mənasız bir təşkilat kimi hesab olunur. Məhz bu məqam özü də AŞPA-da anti-Azərbaycan fəaliyyətə qarşı rəsmi Bakının adekvat hücumu, həmləsi hesab olunur. Ona görə adekvat həmlə hesab olunur ki, Azərbaycan nümayəndə heyətinin etimadnaməsini ratifikasiya etməkdən imtina ilə bağlı təklifin gündəmə gətirildiyi təşkilatda Bakıya qarşı siyasi təzyiq planı, məhz bu addımla ifşa və darmadağın edilir, reallaşdırılmasına da imkan verilmir. Həmin təşkilatın özünün də cılızlığı həmin bəyanatla bir növ elan edilir.

### AŞPA qərəzli qrupların maraqlarının təminat platforması olan marionet quruma çevrilib

Artıq heç kim üçün sirr deyil ki, bəzi üzv dövlətləri hədəfə almaq üçün AŞPA-dan bir platforma kimi istifadə olunur. Müəyyən qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqlarının təminatı məqsədilə sui-istifadə edirlər. AŞPA siyasi korrupsiyanın, ayrı-seçkiliyin, etnik və dini nifrətin, ikili standartların, təkəbbürlülüyün, şovinizmin hökm sürdüyü platformaya çevrilib. Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsinə etiraz etmək təşəbbüsü özü belə çirkin kampaniyanın tərkib hissəsidir və qərəzli qrupların öz maraqlarının təmin edilməsi yönündə bir addımdır. Atdığı addımları ilə bu təşkilat, öz prinsiplərindən uzaqlaşdığını, ümumiyyətlə praktiki fəaliyyətini maraq qruplarının istəkləri üzərində qurduğunu təsdiqləyir. Azərbaycana qarşı qərəzli kampaniyanın məhz indiki dövrdə, daha dəqiq desək, seçki ərəfəsində edilməsi də maraq qruplarının sifarişidir. Məqsəd də seçki mühitini pozmaq, seçkilərin demokratik prinsiplərə uyğun keçirilməsinə kölgə salmaqdır. Deməli, bəlli olur ki, AŞPA bir növ, artıq marionet quruma çevrilib.

### AŞPA-nın məlum qərarını təskinlik hesab edənlərin cılızlığı və acizliyi

Boğulmamaq üçün saman çöpünə əl uzadan çarəsiz misalında, AŞPA-nın məlum ədalətsiz addımından düşmənlərimizin bərk "sevincək" olması başadüşüləndir. AŞPA-nın bəyanatını, qərarını da həm şişirtmələri, həm də özləri üçün bunu bir növ, təskinlik hesab etmələri də anlaşılandır, çünki onların, dövlətimizin, ölkəmizinn əleyhində olanların başqa çarələri də yoxdur. Məsələn, Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin ratifkasiysınadan AŞPA tərəfindən imtina edilməsinə görə erməni cəmiyyəti, belə demək mümkünsə, "ruhlanmış" olub. Sözsüz ki, ermənilərdən, haylardan bundan fərqli davranış, fərqli yanaşma gözləmək də sadəlövhlük olardı və düşmənin hələ də öz xislətini biruzə verməsi bəlli məsələdir. İş ondadır ki, öz ölkəsinin nümayəndə heyətinin etimadnaməsinin ratifkasiysınadan imtina edilməsinə sevinən xaricdə yaşayan sapı özümüzdən olan baltalar,




milli xainlər, satqınlar da var və onlar özlərini düşməndən betər aparırlar. Elə bilirlər ki, bununla nə isə əldə edə biləcəklər və hansısa məqamda onların xəyanətkar fəaliyyətləri üçün bir işıq da olsa düşə bilər. Amma yanılırlar. Dərk edə bilmirlər ki, yel qayadan bir şey qopara bilmədiyi kimi, heç bir beynəlxalq qrumun rəsmi Bakıya qarşı haqsız, ədalətsiz, qərəzli niyyəti Azərbaycanın öz haqq yolundan döndərə, öz müstəqil siyasətinə mane ola bilməz. Bu vaxta qədər xəyanətkarlıqdan başqa əllərindən bir iş gəlməyənlərin, elə ermənilər kimi "sevincək" olanların özlərinə təskinlik verməkdən başqa çarələri yoxdur. Bu, onların acizliyindən xəbər verir və Azərbaycan cəmiyyətində onların kimliyi, daha dəqiq desək, xəyanətkarlıqları barədə gəlinən qənaət bir daha öz təsdiqini tapır.

Mənasız bir təskinlik üçün reallıqları, Azərbaycanın nümayəndə heyətinin bəyanatla çıxış etməsini, məlum qərara görə AŞPA-nı ittiham etməsini, buna görə özlərinin cavabdeh olduqlarını onlara bildirməsini, eləcə də bəyanatı səsləndirdikdən sonra dərhal sessiyanı yarımçıq tərk etməsini, bununla da ölkəmizə qarşı diqtə dili ilə danışmağın mümkünsüz olmasını bəyan etməsini görməməzliyə vurmaq, dəyərləndirməmək cılızlıq və acizlikdir. Belə bir acizliyin, belə bir cılızlığın fonunda qüdrətli Azərbaycan dövlətinə qarşı gələn düşmənlər özlərini gülünc vəziyyətə qoymuş olurlar. Bu vəziyyətə, yəni gülünc duruma düşən, kimliyindən asılı olmayaraq, istər erməni cəmiyyəti olsun, istərsə də ermənilərin dəyirmanına su tökməklə məşğul olan xaricdə oturan sapı özümüzdən olan baltalar, xainlər olsun, istərsə də onlar kimi düşünənlər olsun, hər biri bilməlidir ki, Azərbaycanı öz qətiyyətli mövqeyindən döndərmək, rəsmi Bakının apardığı müstəqil siyasətə mane olmaq mümkünsüzdür. Bilməlidirlər ki, məlum qərara görə mənasız təskinliyi ilə hər biri yalnız öz cılızlığını, acizliyini ortaya qoymuş oldu.

***İnam Hacıyev***



# İran-Pakistan münasibətlərinə yeni baxış




***Son 3 gündə İran və Pakistan arasında münasibətlər xeyli gərginləşmişdi və İranın Pakistan ərazilərinə zərbələr endirməsi İslamabadın narazılığını bir az da artırmışdı. Terrorçuluqla mübarizəni əsas gətirərək qonşu ölkənin ərazisini bombalayan Tehrana cavab olaraq Pakistan Hərbi Hava Qüvvələri İran ərazisindəki terrorçu hədəflərə zərbələr endirəndən sonra sanki Tehran qəflət yuxusundan oyandı, növbəti addımı atmaqla təhlükənin bir addımlığında geri dönüş edə bildi.***

Qeyd edək ki, İran Pakistan ərazisini vurarkən iki ölkənin rəsmi şəxsləri - İranın xarici işlər naziri və Pakistanın baş naziri İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu çərçivəsində görüş keçirirdilər. Hadisədən xəbər tutan kimi, Pakistanın nümayəndə heyəti Davosu tərk edərək təcili şəkildə ölkələrinə qayıdıb.

Pakistan Xarici İşlər Nazirliyi Tehranın əməllərini pisləyib və bunun cavabsız qalmayacağını vurğulayıb. Bundan sonra Pakistan da İrana cavab zərbələri endirib. Proseslərin gərginləşdiyi və iki böyük ölkənin müharibənin astanasına gəldiyi vaxt Türkiyə dövrəyə girib. Türkiyə Xarici İşlər Nazirliyinin məsələyə reaksiyası özünü gecikdirməyib və tərəflərə vasitəçilik təklif edib. XİN başçısı Hakan Fidan Pakistan və İrandan olan həmkarları ilə telefon danışığı aparıb. Fidan danışıqlar zamanı bölgədə yeni problemlərin olmamasına diqqət çəkib və hər iki tərəfi mötədilliyə çağırıb. Nazirlər Cilani və Abdullahian da gərginliyin artmasını istəmədiklərini bildiriblər. Bundan sonra isə tərəflər hədə ritorikalarını konstruktiv dialoqla əvəzləyən biliblər.

Türkiyənin sülhpərvər yanaşmasına rəğmən digər beynəlxalq aktorların və region ölkələrinin heç də hamısının bu xəttə uyğun siyasi kurs seçmədiyi bəlli olub. Pakistanın ən yaxın və ənənəvi müttəfiqlərindən olan ABŞ son illərdə rəsmi İslamabadın Çinə yaxınlaşmasından məmnun olmadığı üçün Rusiya ilə isti münasibətlərdə olan Hindistana maraq salıb. İranla ABŞ-ın münasibətlərinin hansı səviyyədə olması isə sirr deyil. Bu baxımdan Pakistan və İran arasında münasibətlərin gərginləşməsi Vaşinqton üçün ilk baxışda sərfəli olduğu qənaəti formalaşsa da, regionda yeni böyük müharibənin yaranması okeanın o tayında da arzuolunan deyil. Bununla belə, məsələnin tezliklə həll olunması da o qədər cəlbedici görünmür.

ANALİTİK

Rusiya isə yeni müharibələrin başlanmasında maraqlıdır. Tarixi münaqişə ocaqlarının aktivləşməsi Moskva üçün göydəndüşmədir. Ukraynada aktiv döyüşlərin getdiyi vaxtda diqqətin başqa müharibələrə yönəlməsi Kremlin maraqlarına tam uyğundur. Problemin böyüməsini istəməyən aktorlardan biri də Çindir. Pekin kifayət qədər praqmatikdir. Həm Pakistan, həm də İran Çinin əsas tərəfdaşları olduğu üçün geosiyasi, daha çox isə iqtisadi motivlərlə problemin müharibə həddinə çatması "sarı əjdaha" üçün məqbul variant deyil.

## Bəs nə baş verir?

Pakistan Xarici İşlər Nazirliyi əməliyyat nəticəsində Sistan və Bəlucistan əyalətindəki terrorçuların bazalarına zərbələrin endirildiyini bildirib. İran tərəfinin adını çəkdiyi qruplaşma (Ceyş-ül-Ədl) xüsusilə diqqət çəkir. Adıçəkilən qruplaşma 10 ildən çoxdur ki, İranın cənub-şərq hissəsinə hücumlar təşkil edir. Sonuncu dəfə 2023-cü ilin dekabr ayında Sistan və Bəlucistanda 11 iranlı polisin ölümünə səbəb olan hücumun təşkilatçısı həmin qruplaşmadır. Pakistan və İranın bir-birinin ərazisinə antiterror əməliyyatları adı ilə zərbələr endirməsi və mülki şəxslərin həyatını itirməsi regionda gərginliyi artırır.

Pakistan və İran regionun iki güclü ölkəsidir. Hər iki ölkəni dəstəkləyən və zəifləməsində maraqlı olan güclər var. Pakistan-İran müharibəsində maraqlı olmayan ölkələr də var. İranın zəifləməsində maraqlı olan əsas ölkələr İsrail, Səudiyyə Ərəbistanı və ABŞ-dır. İranın zəifləməsini istəməyən ölkələr isə Çin, Hindistan, Rusiya, Britaniyadır. Pakistanın zəifləməsində maraqlı olan ölkə isə Hindistandır.

Bir ehtimal da var. Bu, üzdə İran-Pakistan gərginliyi kimi görünsə də, əslində, hər iki ölkə pərdəarxasında bəluclara qarşı antiterror əməliyyatı keçirir. Bunu hər iki ölkənin XİN başçılarının bəyanatları da təsdiq edir. Misal üçün Pakistan Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur ki, "Pakistan İran İslam Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edir". Bənzər açıqlamanı İran tərəfi də verib. Bəlucların müstəqillik arzusu hər iki ölkə üçün uzun illərdir başağrısına çevrilib. Buna görə də tərəflər ayrı-ayrılıqda bir-birinin ərazisində əməliyyatlar keçirərək, əslində, bir-birinə fayda verir.

## Rəsmi Bakının mövqeyi

Azərbaycan İran-Pakistan gərginliyinin artmasında maraqlı deyil. Ümumiyyətlə, belə bir yanlış görüş var ki, rəsmi Bakı Tehranın hər hansı bir ölkə ilə müharibəyə girməsindən maraqlı olmalı, İranın başı müharibəyə qarışmışkən Zəngəzur məsələsini həll etməlidir. Zəngəzuru özünün "qırmızı xətti" elan edən və hər vəchlə bunu Bakının diqqətinə çatdıran Tehran bu məsələdə uzlaşmaz mövqe sərgiləyir. Zəngəzur dəhlizi Bakının prioritet gördüyü məsələ olsa da, cənub qonşumuz hər hansı ölkə ilə müharibəyə girməsi, dağıntılara məruz qalması bizim üçün ciddi risklər daşıyır. Misal üçün, İranda yaşayan 30 milyondan çox azərbaycanlının ehtimal müharibə zamanı səfərbərliyə cəlb edilməsi, ya da bombalanan Cənubi Azərbaycan şəhərləri fonunda sərhədimizə axışacaq milyonlarla soydaşımız bu risklərdəndir.

Rəsmi Bakı bu riskləri öncədən sezir və heç bir halda İrana qarşı atılacaq addımları dəstəkləmir. Həmçinin başda Pakistan olmaqla İranla ehtimal münaqişəyə girəcək ölkələrin əksəriyyəti dost və tərəfdaş ölkələrdir. Pakistanın İranın Sistan və Bəlucistan əyalətində yerləşən Saravan bölgəsinin yaxınlığına hava zərbəsi endirməsinin detalları məlum olub. Əyalətin qubernatorunun müavini hücumçun səhər saat 4-də baş verdiyini açıqlayıb. "Səhər 3 pilotsuz uçuş aparatı Saravan yaxınlığında sərhəddə yerləşən kəndləri vurdu. Nəticədə 4 ev dağıldı, 10 nəfər pakistanlı həlak oldu. İranlıların o kənddə necə məskunlaşdığı isə məlum deyil, araşdırılır", – qubernator müavini bildirib. Pakistan səhər saatlarında "Marg Bar Sarmachar" adlı antiterror əməliyyatı keçirib. Bu barədə Pakistan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Qeyd edilib ki, əməliyyat çərçivəsində İranın Sistan və Bəlucistan əyalətində yerləşən "terrorçu sığınacaqları"na zərbələr endirilib. Hava zərbələrinin yüksək koordinasiyalı və dəqiq hədəflənmiş olduğu qeyd edilib. "Mövcud kəşfiyyat məlumatlarına əsasən, həyata keçirilən "Marg Bar Sarmachar" kod adlı əməliyyatda, bir neçə terrorçu məhv edilib", – məlumatda vurğulanır.

Ardı Səh. 5





# İran-Pakistan münasibətlərinə yeni baxış







Əvvəli-Səh-4

İranın Tasnim Agentliyi isə Sistan və Bəlucistan əyalətinin Seravan rayonu yaxınlığında baş verən partlayışlarda 7 nəfərin həlak olduğunu bildirib. Partlayış nəticəsində həlak olanların üçünün qadın, dördünün uşaq olduğu vurğulanır. Ölənlərin hamısının İran vətəndaşı olmadığı da bildirilib.

ABŞ-da yaşayan Cənubi Asiya üzrə ekspert Asfandir Mir deyir ki, İranın Pakistana hücumlarının motivləri qaranlıqdır. Bununla belə, eskalasiya mümkündür. Axı Tehran Pakistan ərazisinə zərbə endirmək üçün qüvvələr göndərməklə hətta ABŞ və İsrailin də keçməməyə çalışdığı həddi keçdi. Hadisələrin fonunda hər iki tərəfin Pakistanın Bəlucistan əyaləti və İranın Sistan və Bəlucistan əyaləti ərazisində fəaliyyət göstərən silahlı qruplaşmalara hücum etməsi də göstərilir. Hər ikisi sıradan çıxıb, həm iqtisadi inkişafdan geri qalır, həm də mineral ehtiyatlarla zəngindir. İslamabadın öz təyyarələrini İran ərazisi üzərində hədəfə aldığı Bəluc Azadlıq Cəbhəsi təkcə pakistanlılara qarşı deyil, həm də ölkədə çalışan çinli mütəxəssislərə qarşı terror aktları həyata keçirir. Rəsmi olaraq İslamabad qonşusuna kəskin cavab verib. Pakistan öz səfirini İrandan geri çağırıb və bunun ölkənin suverenliyinin açıq şəkildə pozulması olduğunu bildirib.

Belə ki, mübahisəni alovlandıran dini fikir ayrılıqları deyil, qarşılıqlı inamın olmaması, qonşunun hər iki ölkədə vəziyyətin sabitliyinin pozulmasında əli olması şübhəsidir. Bununla belə, nə İslamabad, nə də Tehran hərbi əməliyyatların dövlətlərarası münaqişə xarakteri daşımasını istəmir.

Yaxın Şərqdə müharibənin genişləndirilməsi perspektivi Çinə qətiyyən yaramır. Nəticədə ÇXR-in kommersiya maraqları zərər görür. Belə ki, Qırmızı dənizdə husilərin hücumları səbəbindən Çin ixrac mallarının Süveyş kanalı ilə daşınması ləngiyib. Bundan əlavə, İran neftinin alıcısı olan Çin İran infrastrukturunun və sənayesinin modernləşdirilməsində iştirak edib.

Pakistan onilliklər ərzində Çinin Cənubi Asiyada əsas təsir bazası olub. Bu ölkədən keçməklə Çinin şimal-qərbindən Hind okeanına qədər nəqliyyat dəhlizi tikilir. Yaxın Çin-Pakistan əlaqələrinin yeni təzahürü İslamabadın Çindən gizli texnologiya ilə istehsal olunan FC-31 döyüş təyyarələri almaq niyyəti olub.

Pekinin qonşularını barışdırmağa kömək etməkdə maraqlı olması təəccüblü deyil. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Ning deyib: "Çin İran və Pakistan arasındakı fikir ayrılıqlarının həllinə kömək etməyə hazırdır". Pekin ümid edir ki, həm Pakistan, həm də İran "sakitlik və təmkin nümayiş etdirəcək, gərginliyin qarşısını alacaq" və qarşılıqlı fikir ayrılıqlarını dialoq və məsləhətləşmələr yolu ilə həll etməyə davam edəcəklər", - Xarici İşlər Nazirliyinin sözçüsü izah edib.

Prinsipcə, qonşular arasında sərhədləri qorumaq çətindir, dağlar var. Bu, iki ölkə arasında hərəkət edə bilən terrorçuların həyatını asanlaşdırır. Beləliklə, bunun bir hissəsi İranın Pakistandakı bu yaraqlıları vurması idi. Amma eyni zamanda İran HƏMAS-ı birbaşa dəstəkləmir, əlini sərbəst saxlamağa çalışır. Bu, İranın terror fəaliyyətini İsrail və ya Amerika kəşfiyyatı ilə əlaqələndirməsinə mane olmur.

### Hindistan və Çin

Çərşənbə günü Hindistanın Çinlə sərhədini əvəz edən faktiki nəzarət xətti boyunca yeni toqquşmalar barədə məlumat ortaya çıxdı. Hindistan Ordusunun Qərb Komandanlığı öz əsgərlərini Çin ordusunun "aqressiv davranışına" qarşı göstərdikləri şücaətə görə mükafatlandırıb. Hadisələr 2021 və 2022-ci illərdə baş verib. Yəni 2020-ci ildə hər iki tərəfdən itkilərlə başa çatan əlbəyaxa döyüşündən sonra yeni ifrat hallar baş verib. Xoşbəxtlikdən, silah deyil, yalnız fiziki güc istifadə edildi. Ekspertin fikrincə, Dehli və Pekin "bir qarış torpağımızdan əl çəkməyəcəyik" bəyan etdikləri üçün gərginliyin baş verməsi qaçılmazdır.

Hindistanın ndtv telekanalının verdiyi məlumata görə, Hindistan ordusu 2020-ci ildə baş verən toqquşmalardan sonra 3488 km uzunluğundakı işarəsiz sərhəddə çox yüksək döyüş hazırlığını qoruyub saxlayıb. Müdafiə naziri Rajnath Singh parlamentdə bir hadisə barədə danışıb. Onun sözlərindən aydın olur ki, əsgərlər özlərini ancaq fiziki güclə ölçüblər. Buna baxmayaraq, hər iki tərəfdən yaralılar olub. "Parlamentin bu palatasını əmin etmək istərdim ki, qoşunlarımız ərazi bütövlüyümüzü müdafiə etməyə borcludur və ona hər hansı qəsd cəhdinin qarşısını almağa davam edəcək", - nazir vurğulayıb.

Rusiya Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının dosenti Sergey Veliçkin qeyd edib: "2020-ci ildə may və iyun aylarında Aksaiçin bölgəsində toqquşmalar olub. Onların böyük nəticələri oldu. 45 ildə ilk dəfə itkilər oldu. Hindlilər onlara məlumat verdi, çinlilər itki verdiklərini təsdiq etmədilər. Daha sonra yenidən toqquşmalar baş verib. Burada nəzərə almaq lazımdır ki, hər iki tərəf öz hərbi kontingentini gücləndirib, magistral yollar çəkib, döyüş təyyarələri üçün meydançalar tikib. Lakin çinlilər hətta armaturaların daşınmasını asanlaşdırmaq üçün dəmir yolu da çəkdilər. Hindistanlıların bununla bağlı elə də böyük maliyyə imkanları yoxdur. Üstəlik, orduya ayrılan xərclər parlamentdən keçməlidir və buna görə də ictimailəşməlidir. Ona görə də son iki ildə baş verənlərdə təəccüblü heç nə yoxdur. Axı hər tərəfin öz siyasəti var - öz torpağının bir qarışını da verməmək. Eyni zamanda hamı bilir ki, Hindistan-Çin münaqişəsini alovlandırmaqda maraqlı olan xarici qüvvələr var".

Sinqapurdakı Nanyang Texniki Universitetinin baş analitiki Nishant Rajeev də deyir ki, Hindistan və Çin sərhədlərini ciddi şəkildə hərbiləşdiriblər və güzəştə getməyə hazır deyillər. Üstəlik, hər iki dövlət nüvə silahına malik olduğundan, eskalasiya riskləri artırır. Digər tərəfdən, Çin və Hindistan komandirləri dəfələrlə görüşdülər, bu da qoşunların məhdud çıxarılmasına və bufer zonaların yaradılmasına səbəb oldu. Amma əsl ayrılıq yox idi. Üstəlik, Çin təhdidinə cavab olaraq Hindistan quru qüvvələrinin bir hissəsini Pakistanla sərhəddən Himalaydakı Nəzarət Xəttinə köçürməyə başladı. Beləliklə, sərhəddə hər iki ölkənin hissələrinin daha çox olmasını proqnozlaşdırmaq olar.

Lakin soyuq müharibədən sonra Hindistan-Çin münasibətləri istiləşdi. İki dövlətin liderləri birbirinə səfər edibləр. Ticarət çiçəkləndi. Lakin 2020-ci il hadisələri bu tendensiyanı kəsdi. Hindistan dəstək üçün daha çox ABŞ-a müraciət etməyə başladı. Dehli və Vaşinqton arasında yüksək texnologiyalar və silah istehsalı sahəsində tərəfdaşlıq haqqında saziş bağlanıb. ABŞ və Hindistan orduları müntəzəm olaraq birgə təlimlər keçirməyə başladılar. Və bu, təbii olaraq, Çinin ABŞ-ın Hindistan-Çin münasibətlərini gərginləşdirməyə çalışması ilə bağlı şübhələrini artırdı, Sinqapurdan olan ekspert qeyd edir.

Bu arada South China Morning Post xatırladır ki, dənizlərdə Hindistan-Çin ziddiyyətləri də artmaqdadır. 2024-cü il ərəfəsində Şri-Lanka Dehliyə Çin tədqiqat gəmilərinin limanlarında və xüsusi iqtisadi zonada yanaşmasını qadağan etdiyini bildirdi. Bu, Hindistanın baş naziri Narendra Modinin daha əvvəl Şri-Lanka prezidenti Ranil Vikramasinqheni Hindistanın təhlükəsizlik narahatlıqlarına hörmətlə yanaşmağa çağırması ilə baş verir. Məsələ burasındadır ki, Çinin "Şi Yan 6" tədqiqat gəmisi Şri-Lanka ilə birgə Hind okeanında tədqiqat aparıb. Dehli hesab edir ki, bu tədqiqatlar kəşfiyyat xarakteri daşıyır. Beləliklə, hindli ekspertlər Hindistanın Çinə qalib gəldiyini bildirirlər. Ancaq bu uğur müvəqqətidir, çünki qadağa cəmi bir il davam edəcək.

"Hazırda İranda dövlət idarəçiliyi sarsıntı içərisindədir. Belə sarsıntı içərisində ikən Pakistanla yaxşı münasibətlər qurmaq yerinə, atdıqları addım son dərəcə yanlışdır". Bu sözləri İranın Pakistanı raket atəşinə tutması barədə danışan Türkiyə Hava Qüvvələrinin istefada olan general-polkovniki (korgeneral) Ərdoğan Karakuş deyib. General-polkovnik İranı düşünülməmiş addımlar atmaqdan çəkinməyə çağırıb: "İranın daxilində çoxlu problemləri var. Xüsusilə Bəlucistanda İranı sıxışdırırlar. Yeri gəldi-gəlmədi məsələnin kökünü Pakistanda axtarırlar. Məncə, İran belə düşünülməmiş addımlar atmaqdan çəkinməlidir. Çünki vəziyyət gərginləşsə, Pakistan İran ordusunu silibsüpürər. Yəni Pakistan hərbi baxımdan qat-qat güclüdür, ancaq Hindistanla yaşanan problemlərə görə tələskənlik etmək istəmir. Fikrimcə, belə gərgin geosiyasi vəziyyətdə Türkiyə, Azərbaycan, Pakistan və İran bir-birinə kömək etməlidir".

Karakuş istisna etməyib ki, hadisə SEPAH-ın içərisində İran-Pakistan yaxınlaşmasını istəməyən qüvvələr tərəfindən təşkil oluna bilər: "SEPAH-ın içərisində İran və Pakistan arasında vəziyyətin gərginləşməsini istəyən qüvvələrin də durumdan istifadə etməsi mümkündür. Yaxın keçmişdə də bunun nümunələri var. Türkiyə Cümhuriyyəti müstəqilliyini qazanandan sonra ingilislər yaxınlaşmanın qarşısını almaq üçün İranda türk sülaləsi olan Qacarları devirdilər və yerinə Pəhləviləri gətirdilər. İndi bu versiyanı da diqqətdən kənarda saxlamaq olmaz. Bölgədə öz planlarını həyata keçirmək istəyən qüvvələr heç vaxt müsəlman ölkələrinin birliyini istəməz. Bunu unutmamalıyıq".

Maraqlıdır, son 3 gündə İran 3 müsəlman ölkəsinə üst-üstə 24 raket zərbələri endirib. Bütün bəhanələri də "terrorçular" olub. Baş verənlərdən çıxış edərək belə deyə bilərik ki, bu gün Qərblə Şərqin, xristian dünyası ilə müsəlmanların savaşı, ölüm-dirim mübarizəsi gedir. "Terrorçu" bəhanəsinin heç yeri deyil. Görünür, İranın məqsədləri ilə Qərbin maraqları haradasa üst-üstə düşür. Yoxsa, İranın Pakistana raket və pilotsuz təyyarələrlə zərbələr endirməsini necə izah etmək olar?

**V.VƏLİYEV**



# Türkiyə-İran: 10 müqavilə və...

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İran lideri İbrahim Rəisi ilə Prezident Külliyesində görüşüb. Daha sonra iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən Türkiyə-İran Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının 8-ci Toplantısından sonra müxtəlif müqavilələrin imzalanma mərasimi başlayıb. Ərdoğanla Rəisinin iştirakı ilə Türkiyə və İran arasında enerji, azad zonalar, media, mədəniyyət, dəmir yolu nəqliyyatı və sürücülük vəsiqələrinin qarşılıqlı tanınması kimi məsələləri əhatə edən 10 müqavilə imzalanıb.***




İran prezidenti İbrahim Rəisi türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla ikitərəfli və regional məsələləri, xüsusilə İsrailin Qəzzaya hücumlarını, İraq və Suriyadakı hadisələri müzakirə edib. Rəisinin səfəri İsrailin Qəzzanı bombalaması, husilərin ticarət gəmilərinə hücumları, Pakistan, Suriya və İraqda hücumları ilə bölgədəki gərginliyin əhəmiyyətli dərəcədə artdığı bir dövrə təsadüf edib. İki lider təmasları zamanı Suriya probleminin həlli üçün Türkiyə-Rusiya və İran arasında yaradılmış Astana Qrupunun işi, Azərbaycan-Ermənistan müharibəsindən sonra Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi kimi məsələləri müzakirə ediblər. İranın dövlət medialarından olan Tasnim xəbər agentliyi iki ölkə arasında 10 yeni müqavilənin imzalandığını vurğulayaraq, iki liderin görüşdən sonra verdiyi açıqlamalara yer verib.

Fransada yerləşən beynəlxalq xəbər agentliyi AFP yazıb ki, İran və Türkiyə Suriya məsələsinə diqqət yetirir. O, İranın prezident Ərdoğan və Bəşər Əsəd arasında mümkün görüş üçün çalışdığını, lakin son aylarda Yaxın Şərqdə yeni müharibə ilə bu təmasların azaldığını yazıb. AFP həmçinin bildirib ki, yeni razılaşmalarla iki ölkə arasında ticarət dövriyyəsinin 30 milyard dollara yüksəlməsi gözlənilir. 2024-cü ilə qədər bu rəqəm 6 milyard dollar civarındadır.

## "Əl Cəzirə": İki lider razı olsun

Ərəb medialarından olan Əl-Cəzirə "Ərdoğan və rəhbəri İsrail-Qəzza müharibəsi ilə bağlı regional sabitliyi təmin etmək üçün razılaşdı" başlıqlı xəbər yayıb. İclasın əsas gündəminin Yaxın Şərqdəki müharibə olduğunu bildirən Əl-Cəzirə, "Əlbəttə, heç kim onlardan müharibəni dayandırmasını gözləmir. İki liderin məqsədi, Qırmızı dənizdə dünya ticarətini təhlükəyə atan Husilərə nəzarət etməkdir", deyə yazıb.

## İran Türkiyədən İsrailə qarşı sanksiyalar istəyir, amma...

İran prezidenti İbrahim Rəisinin Türkiyəyə səfəri İsrail və Fələstinin Həmas qruplaşması arasında genişmiqyaslı müharibə başlayandan bəri bir ilkdir. Səfər daha əvvəl baş tutmalı idi, lakin ərəb nəşrlərinin yazdığına görə, Ankara ilə Tehran arasında Qəzza zolağı ilə bağlı fikir ayrılıqları səbəbindən təxirə salınmışdı. Rəisi türk həmkarından Benyamin Netanyahu hökuməti ilə iqtisadi əlaqələri kəsməyi tələb etsə də, ona rədd cavabı verilib. İndi Türkiyə regional oyunçuların tələblərinə uyğunlaşmağa çalışır: yerli Ticarət Nazirliyi İsraili ixrac üçün hədəf istiqamətlər siyahısından çıxarıb.

Əvvəlcə Rəisi ilə Ərdoğan arasında ikitərəfli danışıqlar aparılıb. Daha sonra Türkiyə və İran arasında Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclası keçirilib. Səfər əvvəlcə ötən ilin sonuna planlaşdırılsa da, təxirə salınıb. Livanın "Əl-Əxbar" nəşrindəki mənbələrin məlumatına görə, buna səbəb Rəisinin Ərdoğandan Türkiyənin daimi ticarət əlaqələri saxladığı İsrailə qarşı iqtisadi sanksiyalar tətbiq etməyi açıq şəkildə tələb etməsi olub. Türkiyə lideri, Əl-Əxbarın iddiasına görə, Ankaranın Qəzza zolağında nəzərəçarpacaq dərəcədə sərtləşmiş ritorikasına baxmayaraq, qəti şəkildə rədd cavabı verib. Təxirə salınmanın ayrı bir səbəbi Ankaranın Rəisinin iştirakı ilə tədbirlərin sayını azaltmaq istəyi olub.

İran prezidentinin səfərindən bir neçə gün əvvəl Türkiyənin Ticarət Nazirliyi regiondakı qonşularının tələblərinə uyğunlaşmağa çalışıb. O, İsraili hər il dərc olunan ixrac üçün hədəf ölkələrin siyahısından çıxarıb, bu, yerli biznesə siqnaldır. Bu o deməkdir ki, Türkiyə tərəfi şirkətləri İsrailə mal tədarük etməyə təşviq etməyi dayandırır və bu cür biznes konsepsiyasını subsidiya və ya siyasi cəhətdən dəstəkləməkdən imtina edir. Yəhudi dövləti ilə yanaşı, digər beynəlxalq oyunçular da müvafiq siyahıdan çıxarılıb: Mozambik, Konqo Demokratik Respublikası, Sudan və İraq.

Ticarət Nazirliyinin mövqeyinin sərtləşdirilməsi ötən ilin statistik göstəriciləri ilə ziddiyyət təşkil edir və buna görə də İsrail Türkiyənin ixracatının prioritet istiqamətləri siyahısında 13-cü yeri tutub. Yəhudi dövlətinin payına 5,42 milyard dollarlıq mal düşüb ki, bu da ümumi malların təxminən 2,1%-ni təşkil edir. Göstərici azalma tendensiyası nümayiş etdirib (2022-ci ildə 7 milyard dollara çatdı), lakin Ankaranın Aralıq dənizi qonşusu ilə bütün ticarət əlaqələrini dayandıracağı gözləntiləri yoxdur. Ticarət Departamentinin siyahısı dekorativ bir jest ola bilər.

Türkiyə Nəqliyyat Nazirliyinin rəsmi məlumatına görə, respublika oktyabrın 7-dən İsrailə 701 ticarət gəmisi göndərib. Bu o deməkdir ki, bu marşrut üzrə hər gün orta hesabla səkkiz səfər həyata keçirilirdi. Onlardan 480-i Türkiyə-İsrail marşrutu üzrə hərəkət edib, qalan 221-i isə Hayfa və ya Aşdod limanlarına gedən yolda Türkiyədə dayanıb.

Rəisi müxtəlif regional platformalarda İsraillə bütün əlaqələri kəsmək ideyasını irəli sürür. Noyabr ayında İran rəhbəri İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Qəzza zolağı ətrafındakı vəziyyətə həsr olunmuş fövqəladə sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanına səfərə gedib. 2023-cü ilin martında Tehran və Ər-Riyad diplomatik münasibətləri bərpa etdikdən sonra bu, İran rəhbərliyinin belə yüksək rütbəli nümayəndəsinin krallığa ilk səfəri olmasına baxmayaraq, görüşlərdə müzakirələr təkcə ikitərəfli əlaqələrin inkişafı ilə bağlı olmayıb. Lakin Səudiyyə tərəfi hələ də münasibət qurmağı istisna etmədiyi İsraillə nə edəcəyi barədə dəqiq qərar verməyib.

Rusiya Beynəlxalq Əlaqələr Şurasının (RIAC) eksperti Nikita Smaqin xatırladıb ki, İran rəhbərliyi bütün İslam dünyasını İsraillə əlaqələri kəsməyə çağırıb. "Tehran bu ideyada israr etməkdə davam edir və müxtəlif ölkələri addım atmağa çağırır", - deyən analitik əlavə edib ki, Ankaraya səfəri zamanı bu sözlər eşidilməyə bilməzdi. - Nə olursa olsun, Türkiyənin bu qərarı verəcəyinə ciddi ümid bəsləməyəcəyimizi düşünmürəm. Ankara artıq İsraillə münasibətlərini xeyli gərginləşdirib. Ritorik olaraq, o, davam edən münaqişə ilə bağlı kifayət qədər sərt mövqe tutdu və İsraili siyasətinə görə açıq şəkildə tənqid etdi".

Bununla belə, Türkiyə iqtisadi və diplomatik əlaqələri kəsməyə hazır deyil. Smagin deyir: "Məncə, İranda onlar da bunu başa düşürlər. Zənglər olacaq? Demək olar ki, mütləq. Bu, nəyəsə təsir edəcəkmi və iranlıların özlərinin də bunun nəyəsə təsir edəcəyinə ümidləri varmı? Məncə yox. Ümumiyyətlə, Rəisinin Türkiyəyə səfəri ölkələr arasında iqtisadi və siyasi əlaqələrin inkişaf etdiyini bir daha göstərir. Bu, kifayət qədər çətin olsa da, İran üçün çox vacib tərəfdaşdır. Məsələn, Suriyada ölkələr əslində müxtəlif düşərgələri dəstəkləyir. Türkiyə, əməkdaşlıq elementlərinin rəqabət və hətta qarşıdurma elementləri ilə növbələşdiyi regionda İranın mürəkkəb və çoxvektorlu xarici siyasətinin nümunəsidir".

**V.VƏLİYEV**

ANALİTİK

# Qisas qiyamətə qalmadı: Daşaltı əməliyyatı

***Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu. Qarşımızda duran ən əsas vəzifə işğaldan azad olunmuş torpaqlarımızın bərpası, quruculuq işlərinin həyata keçirilməsidir. Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı mesajlarını verir.***



Hər bir əraziyə qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səfər edir. Dövlətimizin başçısı tərəfindən bu tarixi ərazilərimizin dirçəldilməsi üçün qısa bir zamanda əməli fəaliyyətə başlanıldı.

Əlbəttə ki, bu gün biz qalib xalq kimi yaşasaq da, ötən illərdə yaşadığımız faciələr tariximizin səhifələrinə həkk olunub və o, tarixi dövr yaddaşımızda qövr edir. Bu gün Daşaltı əməliyyatından 32 il ötür. Daşaltı əməliyyatı Şuşa yaxınlığında yerləşən Daşaltı kəndinin azad edilməsi məqsədi ilə həyata keçirilən əməliyyatdır. 1992-ci ildə yanvarın ortasına doğru Qarabağda ağır vəziyyət yaranmışdı. Erməni qoşunları öz hərbi üstünlüyündən istifadə edərək Qarabağda azərbaycanlılar məskunlaşan məntəqələri mühasirəyə alır və bir-birindən onları təcrid edir, sonra isə müntəzəm surətdə bu məntəqələri tutmağa başlamışdılar. Bu məntəqələrin işğalı zamanı dinc əhali bu kəndlərdən qovulur, kəndlər yandırılırdılar. 1991-ci ilin dekabrında Cəmilli, Kərkicahan və Meşəli kəndlərinin işğalı zamanı erməni silahlı dəstələri dinc əhaliyə qarşı hərbi cinayətlər törətmişdilər. Şuşanın ətrafında gərgin vəziyyət yaranmışdı. Şəhərin ətrafında olan erməni kəndləri erməni silahlı qruplaşmalarının dayaq məntəqələrinə çevrilmişdi, bu məntəqələrdən həm Şuşa şəhəri, həm yaxınlıqdakı azərbaycanlı kəndləri, həm də Şuşa-Laçın yolu daim atəşə tutulurdu.








Daşaltı kəndinin azad edilməsində əməliyyatda yenicə yaranmış Azərbaycan Ordusunun könüllülərdən ibarət 3 bölüyü və Şuşa şəhərinin müdafiə taborunun döyüşçüləri iştirak edib. Taktiki səhvlər, qruplar arasında rabitə əlaqəsinin olmaması, əməliyyat sirrinin yayılması və bələdçilərin xəyanəti nəticəsində Nəbilər kəndi istiqamətindən Daşaltıya daxil olan Azərbaycan tağımları düşmənin pusqusuna düşərək tamamilə məhv edilib. Kəndə daxil olmuş bir neçə tağım isə xeyli itki verərək geri çəkilə bilib. Rəsmi məlumatlara görə, Daşaltı əməliyyatında Azərbaycan Ordusu 90 nəfərdən artıq itki verib.Vurğulayaq ki, 1992-ci ildə yanvarın ortasına doğru Qarabağda ağır vəziyyət yaranmışdı. Erməni qoşunları öz hərbi üstünlüyündən istifadə edərək Dağlıq Qarabağda azərbaycanlılar məskunlaşan məntəqələri mühasirəyə alır və bir-birindən onları təcrid edir, sonra isə müntəzəm surətdə bu məntəqələri tutmağa başlamışdılar. Bu məntəqələrin işğalı zamanı dinc əhali bu kəndlərdən qovulur, kəndləri isə yandırdılar.

### ŞƏHİDLƏRİN QANI ALINDI

1991-ci ilin dekabrında Cəmilli, Kərkicahan və Meşəli kəndlərinin işğalı zamanı erməni silahlı dəstələri dinc əhaliyə qarşı hərbi cinayətlər törətmişdilər. Şuşanın ətrafında gərgin vəziyyət yaranmışdı. Şəhərin ətrafında olan erməni kəndləri erməni silahlı qruplaşmalarının dayaq məntəqələrinə çevirilmişdi, bu məntəqələrdən həm Şuşa şəhəri, həm yaxınlıqdakı azərbaycanlı kəndləri, həm də Şuşa-Laçın

### ORDUMUZ 90 NƏFƏRDƏN ARTIQ İTKİ VERDİ

Daşaltı əməliyyatı 1992-ci il 25 yanvarda axşam saat 20:00-da başlanıb və yanvarın 26-da axşam saatlarında uğursuzluqla başa çatıb. Şuşa yaxınlığında yerləşən yolu daim atəşə tutulurdu. Daşaltı kəndi özü Şuşadan 3-4 kilometr məsafədə, Şuşa-Laçın magistral yolu boyunca yerləşir. Bu kənddəki atəş mövqelərindən erməni qoşunları Şuşaya, həmçinin Şuşa-Laçın yolu üzrə hərəkət edən nəqliyyata daim atəş açırdı, bu isə Şuşada yerləşən Azərbaycan qoşunlarının təchizatında çətinliklər yaradırdı. Yaranmış vəziyyəti nəzərə alaraq, Azərbaycan komandanlığı Daşaltı kəndində erməni qoşunlarının atəş nöqtələrinin məhvi üzrə əməliyyatı keçirmək qərarı qəbul etdi. Əməliyyata böyük əhəmiyyət verilirdi. Bütün cəbhə xətti üzrə erməni qoşunlarına diqqəti yayındıran zərbələri hazırlanırdı. Bu halda əsas zərbələr Daşaltıya və Əsgərana vurulmalı idi. Ancaq Daşaltı əməliyyatı zamanı cəbhənin başqa sahələrində erməni qüvvələrinə heç bir zərbə endirilmədi. Əmrdən iki gün sonra Şuşaya hərbi texnikanın heç biri gəlmədi. Beləliklə, Daşaltı əməliyyatı uğursuzluqla nəticələnmiş oldu.

Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Daşaltı əməliyyatı keçirdi və şəhid olmuş igid oğullarımızın qanı alındı. Daşaltı kəndi erməni işğalçılarından təmizlədi. Uğurlu "Daşaltı əməliyyatı" tariximizə həkk olundu. 44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycan xalqının iradəsini kimsə əyə bilməz.

***Zümrüd BAYRAMOVA***

---



Mətanət Məmmədova

# Məsləhətdir ki, uşaqlarla bərabər oxuyaq...

***Burada nə var ki?.. Deyirlər, oxu, oxu da. Oxu ki, görə biləsən ki, övladın imtahan verən zaman Dövlət İmtahan Mərkəzi sualları proqram daxilində salır, yoxsa imtahandan kənar. Valideynlər imtahan günlərində haray-həşir salır ki, bəs imtahan sualları proqram çərçivəsində deyil, haradan salınıb, bilinmir. Şikayətlər üst-üstə yığılır, sosial şəbəkələr bu mövzu ilə partlayır: müzakirələr, diskussiyalar, qənaətlər... Lakin nəticə əldə olunmur, nədənsə. Yenə il dəyişir, imtahanlar başlayır, eyni problemlər, eyni söz-söhbət...***

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bu barədə nə deyir? Bəli, jurnalistlərə açıqlamasında Abbaszadə bildirir ki, valideynlər birinci sinifdən həmin dərslikləri övladları ilə birgə oxusaydılar, imtahana düşən sualların dərslikdən kənar olmadığını görəcəklər ( uzlaşmaya görə görəcəklər deyil, görərdilər olmalı idi)...

Həqiqətən də problemin yolu məhz budursa, birinci sinifdən uşaqlarla birlikdə oxumağa başlayaq da, burada nə var ki... Yaxşı təklif və məsləhətdir. Problemin həllini tapmaq üçün gözəl tövsiyədir. Başlayaq uşaqlarla birlikdə oxumağa. Onsuz da oxuyuruq, buna söz yox... Uşaqlara dərs öyrədərkən oxuyuruq ki, onlara da anlada bilək. Lakin elə ki, uşaq qalxdı 4-5-ci siniflərə, artıq biz yerimizdə saymağa başlayırıq. Həm də ayı armuda baxan kimi aşağıdan yuxarı boynumuz üzülənədək baxırıq, lakin nə armudu ağacdan qopara bilirik, nə də uşağa ondan bir dilim verə bilirik.

Çünki 4-5-ci siniflərdən sonra təhsil sisteminə elə bir "yenilik" gətirilib ki, bundan hələm-hələm hər kəsin başı çıxa bilməz. Başımız çıxmadığına görə də uşaqla birlikdə oxumaq mümkün olmur.

Bəs nə etməli, uşaqla məktəbəmi getməli? Əlac yoxdur, ya məktəbə getməli, ya da məktəbdən sonra hazırlığa. Getməliyik ki, proqramı izləyə bilək. Məktəbə bizi qoyarlar qoymazlar, bunu bilmirik. Yəqin qoymazlar, ona görə qoymazlar ki, axı əksər məktəblərdən uşaqlar xəbər gətirir ki, dərs keçən müəllim yoxdur.

Müəllimlər də nə etsin axı, özlərini ikiqat yormalıdırlar? Dərsdən sonra onsuz da hazırlıq keçirlər də...

Bəs biz nə edək, proqramı uşaqla birlikdə necə izləyək ki, qəbil imtahanlarında səsimiz çıxmasın... Hazırlığa, repetitor yanınamı gedək? Əslində gedə bilərik, lakin bəs pul-ödəniş məsələsini necə edək? Aşağı siniflərdə 30-50-60 manat, yuxarılarda isə bir fəndən hazırlığın qiyməti 100 manatdır. Bir evdən iki nəfər, məsələn, ana ilə uşaq getsə, bu edir 200 manat, beş fənə vuranda isə 1000 manat...

Nə edək? Nə yeyək, nə içək, nə də əynimizə pal-paltar alaq, pulu ancaq hazırlığa sərf edək?

Yox, bu da olmadı. Hə, əsas məsələ yadıma düşdü. Əsas məsələ budur ki, uşaqlar dərs ili başa çatmamış imtahan verirlər. Bəlkə bu proqramdan kənar sual söz-söhbəti bununla bağlıdır? Bəli, bəli, bununla bağlıdır. Dərs ili başa çatır iyun ayında, qəbul imtahanları başlayır mart-aprel ayılarında. Tədris ili başa çatmayan yerdə imtahan verəndə uşaqlar təbii ki, tanış olmayan suallarla qarşılaşır. İmtahanın iki mərhələdən ibarət olduğunu, birinci mərhələdə imtahan verilən fənnlərin bəzilərinin ikincidə olmadığını nəzərə alsaq, bu uşaq apreldə verdiyi riyaziyyat, ana dili və sair fənlərdən bir daha imtahan vermir. Belə olan yerdə hələ may ayında keçəcəyi dərslərdən salınan suallar ona tanış gəlməyəcək də...

Biz tədris ilini bitirməmiş imtahan verəndə belə olacaqdı da. Bunu nə üçün belə demirik, valideynlərə uşaqlarla bir daha oxumağı məsləhət veririk, bax bunu anlamaq bir qədər...

# “AŞPA yenə həqiqəti görmək və eşitmək istəmədi”

***“Azərbaycan 2001-ci ildən bəri AŞPA-ya üzv olduğu vaxtdan özünü etibarlı tərəfdaş kimi aparıb. Ölkəmiz bu qurumdakı fəaliyyəti dövründə qaldırılan məsələlərlə bağlı hər zaman ədalətli mövqe sərgiləyib. Amma təəssüf ki, AŞPA Azərbaycana problem yaratmaq, ölkəmizi gözdən salmaqdan başqa heç nə etməyib.***



ŞƏRH

Qərbdəki anti-Azərbaycan qüvvələr bu qurumdan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə ediblər və bu gün də eyni siyasət davam edir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib. Deputat sözlərinə belə davam edib: “Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etməsini həzm edə bilməyənlər ölkəmizlə diktə dilində danışacaqlarını zənn edirdilər. Lakin Azərbaycan Nümayəndə Heyəti çox haqlı qərar verdi – bu qərazli qurumla əməkdaşlığı dayandırdı. Bu tarixi qərarla biz sübut etdik ki, Azərbaycana qarşı səslənən ittihamların heç bir əsası yoxdur. Nümayəndə Heyətinin bəyanatında da qeyd edildiyi kimi, “2001-ci ildən 2020-ci ilə qədər olan 19 il ərzində AŞPA işğalçı Ermənistanı Avropa Şurasının əsas dəyər və prinsiplərinə zidd hərəkətlərinə görə cavab vermək barədə qınamadı. Burada söhbət xüsusilə etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin insan haqlarına qarşı açıq-aşkar hörmətsizlikdən gedir”. Azərbaycanın öz suveren ərazilərində beynəlxalq hüquq norma və prinsipləri əsasında həyata keçirdiyi tədbirləri “etnik təmizləmə” kimi qələmə verərək, yenə antiAzərbaycan mövqeyindən çıxış edir.AŞPA artıq mövcud olmayan coğrafi anlayışdan - Dağlıq Qarabağ ifadəsindən istifadə etməklə destruktivlik nümayiş etdirir. Etnik ermənilərin könüllü şəkildə Qarabağı tərk etməsilə bağlı həqiqəti təhrif etməyə çalışır. Halbuki köç prosesi və etnik ermənilərlə sivil davranış bütün dünyanın göz qarşısında sərgilənirdi. Amma AŞPA yenə həqiqəti görmək və eşitmək istəmədi.Qərəzli təklifin almaniyalı deputat Frank Şvabe tərəfindən səslənməsi isə təsadüfi deyil. Fransa və Almaniya bu gün Azərbaycan əleyhinə tandem şəklində çıxış edir. Bəzi hallarda Fransa öz məkrli niyyətlərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır. Bir daha aydın görünür ki, AŞPA Almaniya və Fransanın əlində oyuncaqdır.Biz bu cür qeyri-ciddi təşkilatla əməkdaşlıq edə bilmərik. Azərbaycan müstəqil, suveren, demokratik və multikultural dövlət kimi dünyada nüfuz sahibinə çevrilib. AŞPA ilə əməkdaşlığın dayandırılması və qurumun ölkəmizə qarşı qərəzli ittihamları ölkəmizin imicinə təsir etməyib, bundan sonra edə bilməz”.

# İdman, yoxsa fiziki işgəncə - ÇARƏ NƏDİR?

***Bir neçə gün əvvəl Azərbaycanda idmançı Elvin Səfərovun məşq zamanı uşaqlarla davranışını əks etdirən görüntülər yayılandan sonra ciddi müzakirələrə səbəb oldu. Belə ki, o, idman zalında sıra ilə düzülmüş uşaqların ayaqlarına, bədənlərinə təpiklə ağır zərbələr endirib. Bu zərbələrdən yayınmaq istəyənlərə isə qapaz vurub. Məşqə gələn uşaqların reaksiyalarından da hiss olunub ki, onlar bu zərbələrdən əziyyət çəkirlər. Bəs peşəkar məşqçi necə olmalıdır?***




SİA mövzu ilə bağlı idman ustalarının fikirlərini alıb. Kikboksinq üzrə Dünya və Avropa çempionu, Azərbaycan Respublikasının “əməkdar idman ustası”, Azərbaycan Türkiyə qardaşlıq ödül gecəsində “ilin idmançısı”, sərhədçi zabiti, mayor Fuad Zeynalov bildirib ki, burada günah valideynlərdə görülməlidir: ”Çünki valideynlər uşağı hansısa məşqçiyə əmanət edəndə məşqçi haqqında maraqlanmırlar. Məşqçi haqqında maraqlanmaq, vikipediasına, həyat tərzinə, nailiyyətlərinə, təhsilinə baxmaq lazımdır. Hərə zirzəmidə bir zal açır və heç bir nailiyyəti yoxdur, həyat tərzi, davranışı isə sıfırdır. Əlbəttə ki, elə qeyri-peşəkar adamlar qeyri-etik də davranacaq, kobud hərəkət də edəcək, uşağa həm mənəvi, həm də fiziki tramva da verəcəklər. Ona görə də uşaqları ilk növbədə rəsmi zallara qoysunlar. Bu zalların hamısı nəzarətdədir, hər yerdə kamera var. Burada dərs keçən məşqçilər araşdırılır, sonra işə götürülür. Onların hamısı ali təhsilli, yüksək nəticələri olan idmançılardır. Belə qurumlara, tanınmış, savadlı məşqçilərə uşaqları həvalə etmək lazımdır. Hər yoldan keçənə uşaq əmanət etmək olmaz. Əlbəttə ki, o zaman belə xoşagəlməz hallar baş verir”.

Alpaqut Federasiyasının vitse-prezidenti Rafiq Qasımovun sözlərinə görə, məşqçi ilə müəllim hər zaman fərqlənir: ”Bəzən elə ideya irəli sürürlər ki, məşqçilər ali təhsilli olmalı, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirməlidir. Bu da düzgün deyil, çünki institutu bitirən yüzlərcə insan var ki, ümumiyyətlə idmandan anlayışı yoxdur. Balı çatmadığı üçün bu institutu oxuyur. Düzdür son iki ildə ixisas imtahanları cəlb ediblər. Məşqçilik və müəllimlik birlikdə ikinci valideynlik kimidir. Çətin tərbiyə olunan uşaqlar var ki, valideynin sözünü eşitmir, məşqçinin sözünü eşidir. Tələbələri ilə qeyri-etik, ədəbsiz, kobud davranan məşqçilərə münasibətimiz çox pisdir. Xüsusən oğlan uşaqları məşqçiləri özlərinə kumir görürlər. Ona görə də məşqçilər hansı yolu getsə uşaqlar o yolu getməyə çalışır. Xüsusən də uşaqlıqdan idmanla məşğul olanlar. Məşqçi siqaret çəkirsə uşaq da çəkir, söyüş söyürsə o da söyür, kobud davranırsa o da davranır. Məşqçi nə qədər mədəni, mərifətli, olsa uşaq da bir o qədər yaxşı yetişir. Düzdür məşqçilərdə bir balaca sərtlikdə olmalıdır, çünki uşaq tərbiyə edirlər. Xanımlar da məşq edir, amma kişilərə bir balaca sərt davranmalısan ki, onlar da həyatda lazım olduqda sərt ola bilsinlər. Amma bu o demək deyil ki, uşaqları əzməlisən, döyməlisən, yaxud hansısa qeyri-etik davranışlara məruz qoymalısan”.

***Rəşid Qarayev***



**Elçin Bayramlı**

# Su hara yoxa çıxır?

Dünyada quraqlıq getdikcə daha çox ərazilərdə müşahidə olunur, yağıntılar azalır. Şirin su ehtiyatı isə azalmaqda davam edir. Eyni zamanda əhali artımı, kənd təsərrüfatı və sənayenin inkişafı suya tələbatı çoxaldır. Dünyanın quru ərazisindən suyun çəkilməsi müşahidə olunur. Son illərdə minlərlə çay və göl quruyub. Quruyan bulaqların sayını isə hesablamaq belə mümkün deyil. 2030-cu ilə qədər səhralaşma prosesinin güclənəcəyini məlumdur. Bunun da səbəbi ekologiyanın məhv edilməsi, yeraltı təbii sərvətlərin vəhşicəsinə talan olunmasıdır.

Azərbaycan əhaliyə və əraziyə nisbətdə su ehtiyatının çox az olduğu ölkələrdəndir. Bu ehtiyatın da 70 faizi xarici mənbələrdən formalaşır ki, bu da qlobal su qıtlığı yaranacağı təqdirdə ciddi təhlükə vəd edir. Son illərdə xeyli çay və göl quruyub yoxa çıxıb. Hətta Xəzər dənizində belə suyun sürətlə azalması və dənizin sahillərdən xeyli geri çəkilməsi müşahidə olunur. BMT-nin qiymətləndirmələrinə görə, yaxın gələcəkdə Azərbaycan su stressi yaşayan ölkələr sırasında yer alacaq.

Ölkələr su qıtlığıyla bağlı müxtəlif tədbirlər görür, alternativ mənbələrdən istifadə edirlər. Çox sayda su anbarları, süni göllər yaradılır, artezianlar qurulur, bir yerdə artıq olan su mənbələrinin, suyun az olduğu başqa ərazilərə yönəldilməsi üçün kanallar çəkilir. Bir çox ölkələr dərinliklərdə yerləşən yeraltı su hövzələrinə çatmaq və həmin suyun səthə çıxarılması üçün böyük layihələrin icrasına başlayır.

Eyni zamanda dəniz və okeanlardan götürülən sular duzsuzlaşdırılıb su anbarlarına yığılır. Bu proses kifayət qədər bahalı olsa da, qlobal su böhranından xilas olmağın əsas yollarından biridir. Xatırladım ki, pilot layihə kimi Azərbaycanda da Xəzərin suyunu şirinləşdirmək üçün zavod yaradılıb. Amma bir məsələ var ki, əgər yalnız dənizdən götürülüb şirinləşdirilən suyun ümidinə qalsa, suyun qiyməti hədsiz baha olacaq. Ona görə də nə qədər ki vəziyyət faciəvi hal almayıb, şirin su ehtiyatlarımızı qorumalıyıq. Çox sayda su ehtiyatlarının tikintisinə başlamaq lazımdır.

Çıxış yollarından sudan qənaətlə istifadə etmək və israfçılığın qarşısını almaqdır. Bunun üçün ilk növbədə suvarmada səmərəli üsullardan istifadə qaçılmazdır. Yaşıllıqların açıq, nəzarətsiz və selləmə qaydasında sulanması ciddi itkilərə səbəb olur. Buna görə də damcı və çiləmə üsullarından istifadə edilməlidir. Bu üsul su israfını ən azı 2-3 dəfə azaldır, eyni zamanda torpaqların şoranlaşmasının qarşısını alır.

Məişətdə də sudan qənaətlə istifadə etməliyik. Bu sadə qaydalara əməl etməklə su çatışmazlığına qarşı mübarizə aparmış olarıq. Bundan başqa, mümkün su mənbələri və ehtiyatları fondu yaradılmalıdır. Su anbarlarının tikintisi, artezianların qazılması, yağış sularının toplanması və s.

Əsas problemlərdən biri odur ki, dünya üzrə ən çox su itkisi qeydə alınan ölkələrdən biri də Azərbaycandadır. Dünya norması 5-6 faiz olduğu halda qeyri-effektiv idarəetmə səbəbindən Azərbaycanda su itkisi 40 faiz civarındadır. Bu itkilərin yarısı obyektiv səbəbdən olsa da, yarısı da subyektiv səbəblərdəndiryəni, yerlərdə suyun qanunsuz dövriyyəsinə daxil olan su həcminin itki olaraq göstərilməsi.

Ölkəmizdə su kanallarının ümumi uzunluğu 50 min kilometrdən çoxdur. 90 faizindən çoxu da məhz torpaq kanallarıdır. Torpaq suvarma kanalları ilə ötürülən suda isə itkilər çox olur. Uzun məsafələrdə su torpağın alt qatlarına hopur və təyinat nöqtələrinə suyun az bir hissəsi gedib çatır. Hamısı olmasa da, mümkün qədərini beton kanallarla əvəzləmək lazımdır. Bəzi yerlərdə isə borulardan istifadə etmək olar.

İşğaldan azad olunan torpaqlar sayəsində böyük su ehtiyatlarına çıxış imkanlarımız yarandı. Ümumi su ehtiyatımızın 30 faizi bu zonada yerləşir. Bu ehtiyatlardan düzgün istifadə etməklə ətraf regionlarda da su problemini həll etmək olar.

Ötən il Prezident Sərəncamı ilə Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb ki, su təsərrüfatları mərkəzləşmiş qaydada idarə olunsun. Hesab edirəm ki, Agentlik düzgün nəzarət sistemi yarada bilsə, quruyan su ehtiyatlarının səbəblərini araşdırıb qarşısını almağa çalışsa, özümüzü qlobal su böhranından sığortalaya bilərik.

# Dünyamızın gələcəyi sual altındadır





*Hazırda bəşəriyyət İkinci Dünya müharibəsindən sonra ən fəlakətli və faciəvi durum yaşayır. Az qala dünyanın bütün bölgələrində, müharibələr, münaqişələr, ölkələrdaxili qarşıdurmalar baş verir. Yüz minlərlə insanın həyatını itirməsi, ev-eşiyinin dağılması, yurd-yuvasından didərgin salınması hesabına başa gələn müharibələri və münaqişələri aradan qaldırmağa cəhd edən hansısa beynəlxalq təşkilat yoxdur.*



Bu da onu təsdiq edir ki, dünyamızın gələcəyi sual altındadır. Hər an beyni pozulmuş lider, ağılı başında olmayan siyasətçi atom bombasından istifadə etməklə dünyanın varlığına son qoya bilər. Nəzərə almaq lazımdır ki, Rusiya prezidenti nüvə silahına arxalanaraq “Rusiyasız dünya bizim nəyimizə lazımdır”, - deyə bildirmişdir. 2022-ci ilin fevralından Ukraynaya qarşı başladığı müharibə minlərlə insanın həyatını itirməsi, yüzlərlə şəhərin, kənd və qəsəbənin dağıdılması, milyonlarla insanın öz isti ev-eşiyini tərk etməsi ilə nəticələndi. Demək olar ki, Ukrayna ərazisində az qala 70 faizi dağılıb, 20 milyon insan müxtəlif ölkələrə köç ediblər. İtkilərinin sayı da az deyil - 400 min nəfər. Rusiya tərəfinin itkiləri də 400 minə çatır. Yaralıların sayı isə ümumilikdə 3 milyondur. Müharibə isə davam edir. Hər gün yüzlərlə insan ölür, kənd və şəhərlər dağıdılır. Bu kimi faktlar onu təsdiq edir ki, müharibəni başlayanlar istəklərinə nail ola bilmədilər. Nə idi o istək? Birincisi, Ukraynanı işğal etməklə Qərbi və ABŞ-ın bölgə maraqlarını sıradan çıxartmaq. İkincisi isə, Rusiyada 2024-cü ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə qədər ağır və üzücü görünən Ukrayna problemini həll edib, seçkilərə qəhrəman olaraq qatılmaq. Lakin görünən ondan ibarətdir ki, Avropa və ABŞ rəsmi Kremlin arzularını darmadağın etdi. Təbii ki, Ukraynada öz ərazi bütövlüyünü və suverenliyini təhlükə altına qoydu.

## Müharibənin miqyası genişlənir

Qərb dairələri Ukraynaya hərbi dəstək göstərməklə ara-sıra Rusiyanın ərazilərinə hücumlar təşkil etdirməklə rəsmi Moskvanı cəzalandırmağa çalışırlar. Ukraynanın Krımı, Voreneji, Belqorodu, Donetskini və digər əraziləri ardıcıl olaraq raket atəşinə tutması Zelenski hakimiyyətinin öz yerində dayanıb, məğlubiyyətini gözləmək fikrində olmadığını göstərir. Ukrayna silahlı qüvvələrinin Donetski bazarını raket atəşinə tutması və 30 nəfərin ölməsi, 50-yə yaxın insanın yaralanması müharibənin miqyasının genişlənməsi fonunda ən çox zərbəni mülki əhalinin aldığını göstərir. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, dövlət başçısı Vladimir Putin Donetskə endirilən zərbələrlə bağlı məlumat alıb və göstərişlər verilib.”Təbii ki, müvafiq hesabatlar olub, prezident lazımi göstərişlər verib”. Onun sözlərinə görə, zərərçəkənlərə tibbi yardımın göstərilməsi üçün bütün tədbirlər regional səviyyədə həyata keçirilir. Peskov həmçinin Kiyevin Donetskdə dinc sakinlərə və mülki infrastruktura hücumlarını dəhşətli terror aktı adlandırıb. Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bıstrıkin Donetskdə bazarın atəşə tutulmasında əli olan şəxslərin müəyyən edilməsi barədə göstəriş verib.

Belqorod vilayətinin qubernatoru Vyaçeslav Qladkov bildirib ki, Ukraynaya məxsus kamikadze pilotsuz uçan aparat “Lozovaya rudka” fermasındakı şəxsi yaşayış binasına daxil olub. Rusiya Silahlı Qüvvələri Ukrayna Silahlı Qüvvələrinin “Liman” əməliyyat-taktiki qrupunun komanda məntəqəsini vurub. Hücum Rusiya qoşunlarının əməliyyat-taktiki aviasiyası tərəfindən həyata keçirilib. Rusiya Qüvvələr Qrupunun “Mərkəz” bölmələri Krasnolimanski istiqamətində cəbhə xəttində mövqelərini xeyli yaxşılaşdırıblar. Bu, artilleriya ekipajlarının pərdəsi altında bu zonada aktiv əməliyyatlar sayəsində mümkün olub. Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) keçmiş polkovniki Oleq Starikov bildirib ki, Ukrayna Silahlı Qüvvələrinin mühəndis qoşunları artıq yeni müdafiə xəttinin tikintisinə başlayıb və onlar tezliklə geri çəkilməli olacaqlar.

Rusiyanın hava hücumundan müdafiə sistemləri Ukrayna Silahlı Qüvvələrinə məxsus 4 pilotsuz təyyarəni Oryol vilayəti ərazisi üzərində məhv edib. Bu barədə regionun rəhbəri Andrey Klıçkov məlumat verib, sonradan məlumatı Müdafiə Nazirliyi təsdiqləyib. Yanvarın 24-ü, çərşənbə günü səhər saatlarında qurğular tutularaq zərərsizləşdirilib. Ölən və yaralananlar olmayıb. Dnepr qoşun qrupunun rusiyalı desantları Ukrayna Silahlı Qüvvələrinin zenit qurğusunu məhv ediblər. Bu, Dnepr çayının sağ sahilində Xerson istiqamətində baş verib. Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, söhbət ZU-23-ün quraşdırılmasından gedir. Rusiyanın hava hücumundan müdafiə sistemi Belqorod vilayətinin Valuyski rayonunda hava hədəfini vurub. Bu barədə vilayət qubernatoru Vyaçeslav Qladkov bildirib.

“DXR” rəhbəri Denis Puşilin isə bildirib ki, Ukrayna Silahlı Qüvvələrinin 24 saat ərzində respublika ərazisini atəşə tutması nəticəsində 28 nəfər ölüb, daha 30 nəfər yaralanıb. “Donetsk Xalq Respublikası”nın hakimiyyəti Ukrayna ordusunun Donetskə endirdiyi zərbənin qurbanları üçün matəm günü elan edib.

## V.Zelenski Rusiya torpaqlarına iddialıdır

Bu arada V. Zeleniski daha bir cəsarətli addım atıb. Bu Zelenskinin imzaladığı “Rusiya Federasiyasının tarixən ukraynalıların yaşadıqları əraziləri haqqında” fərman oldu. Ukrayna Nazirlər Kabineti fərmana uyğun olaraq “Rusiya Federasiyasında, o cümlədən tarixən məskunlaşdıqları torpaqlarda - ukraynalıların milli kimliyinin qorunub saxlanılması üçün tədbirlər planını hazırlayıb Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasına təqdim etmək tapşırılıb. Müasir Krasnodar diyarı daxilində Kuban, Starodubşina, Şimali və Şərqi Slobojanşçina, Rusiya Federasiyasının Belqorod, Bryansk, Voronej, Kursk, Rostov vilayətləri”.

V. Zelenskinin bu qərarının ardınca Ukrayna ordusu daha geniş şəkildə Rusiya ərazilərini bombalamağa başlayıb. ABŞ və Avropada Ukraynanı maliyyə və hərbi yardımlarını artırmaqdadır. UNN agentliyinin məlumatına görə, Ukrayna Silahlı Qüvvələri (AFU) üçün Almaniya Leopard-2 tanklarının ardınca. SurveilSpire kəşfiyyat sistemlərinin yeni partiyasını tədarük etməyə başlayıb: “Rheinmetall SurveilSpire avtomatlaşdırılmış kəşfiyyat sistemlərinin yeni partiyasını Ukraynaya köçürməyə başlayıb. Ukrayna üçün sifariş Almaniya hökuməti tərəfindən ödənilib. Sifarişlər ikirəqəmli milyonlarla avro diapazonundadır. Aydınlaşdırılır ki, sistemlərə videonu mobil komanda postuna ötürmək üçün 4G və Starlink kimi simsiz rabitə kanalları daxildir”.

Rusiya Müdafiə Nazirliyindən yanvarın 24-nə olan vəziyyətlə bağlı bildirilib ki, Rusiya qoşunları Ukraynanın hərbi sənaye kompleksinə dəqiq silahlarla qrup zərbəsi endirib, raket və sursat istehsal edən obyektlərə zərbələr endirib: “Rusiya Silahlı Qüvvələri bir sutka ərzində Ukrayna Silahlı Qüvvələrinin 6 hücumunu dəf edib və Kupyansk istiqamətində cəbhə xətti boyunca mövqelərini yaxşılaşdırıb. 56 pilotsuz təyyarə və HIMARS MLRS mərmisi Rusiya hava hücumundan müdafiə vasitələri tərəfindən məhv edilib. Rusiya Silahlı Qüvvələri Donetsk istiqamətində 280-dən çox ukraynalı hərbçini məhv edib. Rusiya Silahlı Qüvvələri Ukrayna Silahlı Qüvvələrinin “Liman” əməliyyat-taktiki qrupunun komanda məntəqəsini vurub”.

TASS-ın fövqəladə hallar xidmətinə istinadən verdiyi xəbərə görə, Rusiya Silahlı Qüvvələri Xarkovda Ukrayna Silahlı Qüvvələrinin muzdlularının olduğu yerə zərbələr endirib.“Bu gecə Xarkovda muzdluların yerləşdiyi yerə növbəti dəfə hədəfli zərbələr endirilib. Həmin şəxslərin hansı ölkənin vətəndaşı olduğu hələlik məlum deyil, lakin bu məlumat hazırda dəqiqləşdirilir”, - agentlik həmsöhbətdən sitat gətirir.

## Qərb maşınları sərt qışa tab gətirə bilmirlər

CNN-in məlumatına görə, Ukrayna Silahlı Qüvvələrinin ekipajları Qərb maşınlarının sərt qışa tab gətirə bilmədiyini qeyd ediblər. Rusiya qoşunları xüsusi əməliyyat başlayandan bəri Ukrayna Silahlı Qüvvələrinin 11 mindən çox pilotsuz uçan aparatını məhv edib: “ Rusiyanın hava hücumundan müdafiəsi Xarkov vilayətində Ukraynanın Su-25 təyyarəsini vurub;-Rusiya Silahlı Qüvvələri Kupyansk istiqamətində gündə 9 hücumu dəf edib, Ukrayna Silahlı Qüvvələri 180-ə qədər hərbçi itirib; Donetsk istiqamətində Rusiya Silahlı Qüvvələri Ukrayna Silahlı Qüvvələrinə məxsus on tankı, o cümlədən biri “Leopard”ı məhv edib; Rusiya qoşunları Ukrayna Silahlı Qüvvələrinin 23-cü mexanikləşdirilmiş briqadasının iki səhra anbarını dağıdıblar;-Ukrayna Silahlı Qüvvələri Cənubi Donetsk istiqamətində 120-yə qədər hərbi qulluqçu və 2 ”Akatsiya” özüyeriyən silahını itirib; 6 STORM SHADOW qanadlı raketi, 5 HIMARS MLRS mərmisi, Ukrayna Silahlı Qüvvələrinə məxsus 76 pilotsuz uçan aparat Rusiyanın hava hücumundan müdafiəsi tərəfindən məhv edilib.“Qərb” qüvvələr qrupunun 1-ci Mühafizə Tank Ordusunun TOS-A1 “Solntsepek” gəmisinin ekipajları Kupyansk istiqamətində Ukrayna Silahlı Qüvvələrinin bölmələrinin taqım istehkamlarını və sığınacaqlarını məhv edib”.

Rusiya- Ukrayana müharibəsi bütün mövcudluğu ilə daha amansız və dağıdıcı xarakter almaqdadır. Vəziyyətin gərginləşməsi Avropada sabitliyin pozulmasına gətirib çıxarar. Buna hələ ki, üçüncü dünya müharibəsi demək çətin olsa da, hər halda siyasi və hərbi toqquşmalar və nəhayət, qida çatışmazlığı sahəsində ciddi problemlər dünyanın sabahı üçün heç də yaxşı nəticə vəd etmir. Rusiya Prezidenti V. Putinin hələ ki, müharibəni dayandırmaq fikrinin olmaması və rəsmi Kiyevində işğal altında olan ərazilərini azad etmək üçün mübarizə aparması onu deməyə əsas verir ki, dünyada fəlakətli hal yaşana bilər. Yəni, daha ağır silahlar, hətta atom bombası işə düşə bilər. Üzücü də olsa etiraf olunmalıdır ki, əgər nüvə silahı işə düşərsə, bəşəriyyətin mövcudluğu sual altına düşə bilər. Gözlənilən fəlakətlərin miqyasını isə hələ ki, dünyanın aparıcı dövlətləri anlamırlar. Bu da onu deməyə əsas verir ki, onlar bəşəriyyətin, insanlığın cəlladlarıdır.

**İLHAM ƏLİYEV**

# 2 milyonuncu vətəndaş: DOST MƏRKƏZİ

***DOST mərkəzlərində xidmət göstərilən vətəndaşların sayı 2 milyona çatıb. Belə ki, 2 milyonuncu vətəndaşa Bərdə şəhərində yerləşən Qarabağ Regional DOST mərkəzində xidmət göstərilib. Beləliklə, DOST mərkəzlərinin sayı artıq 7-yə çatıb. Hazırda DOST xidmətləri şəbəkəsinin Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə, Masallı və Şuşanı da əhatə etməsi üçün layihə, təmir-tikinti işləri aparılır. Bu il 5 yaşını qeyd edən DOST Agentliyinin fəaliyyəti beynəlxalq arenada da yüksək qiymətləndirilir. 2023-cü ildə də bir sıra beynəlxalq müsabiqələrdə qalib gələn DOST Agentliyinin təltif edildiyi mükafatların sayı artıq 20-yə çatıb.***

Bir çox ölkələr DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə maraq göstərirlər və həmin ölkələrdə Azərbaycanın DOST modelinin tətbiqi məqsədilə ölkəmizin təcrübəsinin bölüşülməsi üçün işlər aparılır. Bu, ”DOST” mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində ”ASAN xidmət”dən sonra Azərbaycanın yeni brendinə çevrilib. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Cənab İlham Əliyevin vurğuladığı kimi DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir. Həmçinin Azərbaycanda ilk dəfə sosial xidmətlər sahəsində keçirilən ”DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma” adlı beynəlxalq konfrans böyük maraqla qarşılanıb. ”DOSTTALKS” layihəsi çərçivəsində ”Heydər Əliyev Xatirələrdə”, eləcə də bir çox tədbir və layihələr də həyata keçirilib.




### ”BİR PƏNCƏRƏ”DƏN VƏTƏNDAŞ RAHATLIĞI VƏ MƏMNUNLUĞU

DOST mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində inqilab yaradıb. Dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə DOST layihəsi, artıq bu sahədə də öz sözünü demiş oldu. Vətəndaşların DOST xidmətlərindən məmnunluq səviyyəsi 98 faiz üzərindədir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əsasında 159 sosial xidmət ”bir pəncərə”dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur. Ölkə başçısının ”Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Təbii ki, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi də qarşıya qoyulan məqsədlər sırasında yer alıb. Bu gün ölkəmizdə ”ASAN xidmət” mərkəzləri kimi DOST mərkəzlərinin də sayı artır. Ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri hər bir vətəndaşda məmnunluq yaradır. Vətəndaşların böyük etibarını qazanıb.

### 120 MİNƏ YAXIN VƏTƏNDAŞA 159 ADDA XİDMƏT

Məlumdur ki, 9 may 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə 1 saylı Bakı DOST Mərkəzinin açılışı olmuşdur. 2023-cü ilin avqust ayında Prezident İlham Əliyevin iştirakı ilə Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışı olub. Mərkəz gün ərzində təxminən 650-700 vətəndaş qəbul etmək potensialına malikdir. Bu prosesi 123 nəfərdən ibarət işçi heyəti və 50 nəfərədək könüllü həyata keçirir. Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Şuşa, Xankəndi və Xocavənd rayon sakinlərinə xidmət edən mərkəzdə il ərzində 120 minə yaxın vətəndaşa 159 adda xidmət göstərilir. Buraya məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət və sosial-pedaqoji xidmətlər daxildir. Qarabağ Regional DOST Mərkəzinin nəzdində Qarabağ Peşə Hazırlığı Mərkəzi fəaliyyət göstərir. 7 emalatxana, 8 sinif və təlimat otağı, eləcə də ”Peşəyönümü və Karyera Mərkəzi”, inzibati və texniki otaqlardan ibarət olan Qarabağ Peşə hazırlığı Mərkəzində 20 nəfərə yaxın əməkdaş çalışır. Qarabağ Regional DOST mərkəzində ötən dövrdə artıq 24 minə yaxın vətəndaşa xidmət göstərilib. Hazırda DOST xidmətləri şəbəkəsinin digər bölgələr üzrə də genişləndirilməsi üçün işlər aparılır. Fəaliyyət göstərən DOST mərkəzləri vətəndaşların bütün xidmətlərdən ”bir pəncərə”yə müraciət etməsinə və ”bir pəncərə”dən faydalanmasına imkan verir.

### ÜNVANLILIQ, ƏLÇATANLIQ VƏ BƏRABƏRLİK PRİNSİPLƏRİ

Göründüyü kimi, həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə olunub. Azərbaycan modeli dünya ölkələri üçün nümunəyə çevrilib. Azərbaycanda həyata keçirilən iri layihələr, islahatlar bir daha təsdiqləyir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində atılan addımlar insanların xoşbəxt gələcəyinin təminatına yönəldilib.

Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Ümumilikdə 16 regional mərkəzin yaradılması planlaşdırılır və önəmli prioritetlərdən biri də işğaldan azad olunmuş ərazilərimizlə bağlıdır. Müasir dövrümüzdə Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*



AFƏT

# Avropa, bunu biz istəmədik...

***Beləliklə, uzun illərdir çək-çevirlə məşğul olan AŞPA-da ölkəmizə qarşı atılan son qərəzli və şovinistliyə söykənən addım atıldı və əslində, bu qurumdan həmin addımın atılması gözlənilən idi. Daha dəqiq desək, AB və AŞ-nın ölkəmizə təzyiq yolu ilə məqsədinə çatmaq istədiyi baş verdi, amma həmin məqsədə çatılacaqmı..?***

### Son 30 ildə və adıçəkilən quruma üzv olduğumuz 23 ildə...

Fakt budur ki, AŞPA və Azərbaycan arasında münasibətlər xüsusilə, ikinci Qarabağ müharibəsindən sonra həddindən artıq gərginləşmək üzrə istiqamət almışdı. Belə ki, son 30 ildə və adıçəkilən quruma üzv olduğumuz 23 ildə həmin təşkilatın ölkəmizə qarşı münasibəti müsbət olmayıb. 44 günlük müharibə ərəfəsində və sonrasında demək olar ki, hər dəfə AŞPA-da ölkəmizə qarşı qərəzli qərarlar qəbul edilirdi. Bütün bunlar isə ”erməni abidələri”, ”erməni qaçqınları”, Ermənistanın sərhəd iddiaları və s. çığır-bağırlarla müşahidə olunurdu. Belə bir mövqe isə əlbəttə ki, qəbuledilməz hesab olunurdu. Birtərəfli mövqe isə ikibaşlı oyun təsirini bağışlayırdı. Çünki Azərbaycan xalqı və dövləti heç zaman AŞPA-nın ölkəmizlə, qaçqınlarımızla, Ermənistanın işğalı və yeni ərazi iddiaları ilə bağlı hansısa tutarlı, əsaslı sənəd, qətnamə qəbul edildiyini görmədi. Bəs biz burada daha hansı məqamları görə biləriк?

### Siyasi tariximizdə ciddi hadisə!

İlk növbədə, AŞPA artıq beynəlxalq siyasi çevrələrdə önəmli qurum kimi görünmür və bu reallığın nəyə görə yaranmasını həmin qurum özü-özündə axtarmalıdır. Digər tərəfdən, bu məşvərətçi, yaxud məsləhətçi bir qurumdur. Avropada siyasəti isə Avropa Birliyi Şurası və Avropa Komissiyası müəyyən edir. AŞPA-da cavab kimi Azərbaycan nümayəndə heyətinin tutarlı, əsaslı və gerçəkliyi ifadə edən bəyanat yayaraq qeyri-müəyyən müddətə fəaliyyətini dondurması və qurumu nümayişkəranə şəkildə tərk etməsi isə siyasi tariximizdə çox ciddi bir hadisədir. Artıq Azərbaycan əvvəlki Azərbaycan deyil və xalqımız yaxın gələcəkdə dövlətimizin xarici siyasətində bu istiqamətdə atılacaq növbəti addımlarının şahidi olacaq.

### AŞ keçmiş uğursuz siyasətçilərin, eks-deputatların, korrupsiyalara bulaşmış biznesmen və maliyyə cinayətləri ifşa edilən oliqarxların yığışdıqları kluba, hətta siyasi bordelə çevrilib

Daha bir məqam isə budur ki, AŞ keçmiş uğursuz siyasətçilərin, eks-deputatların, korrupsiyalara bulaşmış biznesmen və maliyyə cinayətləri ifşa edilən oliqarxların yığışdıqları kluba, hətta siyasi bordelə çevrilib.

Fəqət, qoca siyasi korrupsioner Jozep Borrellin də Azərbaycanın Ermənistan ərazisini ”işğal” niyyətindən narahat olduğunu bəyan etməsi artıq rəsmi Bakı üçün ciddi siqnal oldu. Artıq belə bəyanatlar AB və AŞ-nın Azərbaycanı siyasi təcrid yolunu tutduqlarını isbatladı. Sabah-biri gün isə ATƏT-dən də bənzər addımların atıla biləcəyini istisna etmək olmaz. Onlar təzyiqlə hansısa məqsədlərə nail olmaq niyyətində olduqlarını gizlətmirlər.

Vətən və dövlətçilik, ərazi bütövlüyü və suverenlik məsələsində heç bir halda, hətta daha gərgin proseslər dövründə güzəştlərə gedilmir!

Ancaq rəsmi Bakının qətiyyəti, müstəqil siyasəti qarşılığında ermənipərəst xristian klubları heç bir şey əldə edə bilməyəcəklər və əslində, onlar da bunu yaxşı bilirlər. Vətən və dövlətçilik, ərazi bütövlüyü və suverenlik məsələsində heç bir halda, hətta daha gərgin proseslər dövründə güzəştlərə gedilmir! Geriyə isə yol yoxdur. Azərbaycan da qarşılığı və nəticəsi nə olursa-olsun, heç bir şəkildə geri addım atmayacaq! O vaxta qədər ki, Avropa qurumları öz ciddi səhvlərini etiraf edib, üzr istəyəcəklərinə qədər... Azərbaycanımıza qarşı təzyiq, şantaj, sabotaj və qərəz yolu ilə təsir edə biləcəklərini güman edənlər isə bundan sonrs istəyənlər daha sarsılmaz birliyimizi və daha qətiyyətli xalq-dövlət gücümüzü görəcəklər. Buna isə qətiyyən şübhələri olmasın. Necə deyərlər, bunu biz istəmədik...

# Böyük ziyalılar yetirən ulu torpaq



***Mədəniyyət beşiyi olan, ədəbi-bədii fikir tariximizə böyük dərəylər bəxş etmiş Qarabağın incisi hesab olan Şuşa Azərbaycan tarixinə böyük mütəfəkkirlər, ictimai-siyasi xadimlər bəxş etmişdir. Onların dəsti-xətti, yaradıcılıq irsi, elmi, siyasi görüşləri tariximizdə iz salmış və hər birinin özünəməxsus olan bir tərcümeyi-halı var ki, onları vərəqlədikcə böyük qürur yaşayırsan ki, xalqımızın belə zəngin, fədakar simaları olub.***

Hər sahədə mücadilə aparıb, geniş yaradıcılıq imkanları, siyasi mübarizələri ilə Şuşada boya-başa çatan insanların kimliyi bizdə əməlləri ilə lazımı təsəvvür yaratmışdı. Bu torpağın yetirdiyi Azərbaycan Demokratik Cumhuriyyəti dövründə Ukraynada diplomatik nümayəndə təyin edilən Yusif Vəzir Çəmənzəminli eyni zamanda Krımda və Polşada da Azərbaycanın diplomatik nümayəndəsi idi. Yenicə işə başlamış diplomatik nümayəndəliyin əsas məqsədi Azərbaycanı bu ölkələrin ictimaiyyətinə tanıtmaq idi. Böyük əsərlər müəllifi olan Yusif Vəzir bu vəzifəni yerinə yetirməklə yanaşı, ədib olduğunu da heç vaxt unutmamış və Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti haqqında əsərlər yaratmışdır. 1921-ci ildə yazıçının elmi müşahidələrlə zəngin olan "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi – coğrafi və iqtisadi Azərbaycan" adlı kitabları işıq üzü görür. 1930-1935-ci ildə o özünün "Qızlar bulağı", "Studentlər", "1917-ci ildə" romanlarını çap edir, komik pyes olan "Həzrəti Şəhriyar" əsərini qələmə alır. Qarabağın – Şuşanın yetirdiyi Azərbaycan yazıçısı, publisisti, tərcüməçisi, tənqidçisi, maarifləndiricisi və ictimai xadimi Xəlil İbrahim ictimai-siyasi, mədəni-maarifləndirici, sosial və s. qadın azadlığı mövzusunda yazaraq, özünü bütün janrlarda mükəmməl yazıb-yaradan bir ziyalı olaraq təqdim edib.

Əlbəttə ki, Şuşanın tarixini vərəqlədikcə nə qədər böyük ziyalıların olduğunu görürük. Bu gün onlardan biri olan Azərbaycan ədəbiyyatşünaslığı və pedaqoji fikir tarixində məşhur olan alim, tənqidçi və pedaqoq kimi dəyərləndirilən Firudin bəy Köçərli haqqında söz açacağıq. Böyük sənətkarın doğum günündə – 26 yanvar tarixində.

### ŞUŞADA KÖÇƏRLİ MƏHƏLLƏSİ

Tərəqqipərvər elm və ədəbiyyat xadimləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdən olan Firudin bəy Əhməd ağa oğlu 1863-cü ilin 26 yanvarında Şuşada anadan olub. Əsli Cavanşir mahalının Köçərli kəndindən olan Firudin bəyin ulu babalarından Məhəmməd bəy Köçərli kəndindən Şuşaya köçmüş, burada yurd-yuva salmış, beləliklə, Şuşada Köçərli məhəlləsi yaranmışdır. Firudin bəyin dünyaya göz açdığı mühit əsl ziyalı mühiti olmuşdur. Belə ki, onun atası Əhməd ağa savadlı bir şəxs olmuşdur. Belə bir mədəni mühitdə böyüyən Firudin bəy Mirzə Kərim Münşizadənin məktəbində təhsilə başlamış, sonralar Şuşadakı rus məktəbinə daxil olmuşdur. Onun tərcümeyi-halında göstərilir ki, Firudin bəy Köçərli 1872–1876-cı illərdə Şuşada Mirzə Kərim Münşinin mədrəsə məktəbində təhsil alıb. Daha sonra 1876-cı ildə Şuşadakı rus məktəbinə daxil olub. 1878-ci ildə Aleksey Çernyayevski Zaqafqaziya Müəllimlər Seminariyasına tələbə toplamaq məqsədi ilə bu məktəbə gəlir və Firudin bəyi də təhsil almaq üçün Qoriyə aparır. 1879–1885-ci illər ərzində o Zaqafqaziya müəllimlər seminariyasında təhsil alır. Təhsil aldığı müddətdə müəllimləri A.O.Çernyayevski və M.Kipiani ilə yaxın münasibət saxlayır. 1885-ci ildə seminariyanı bitirdikdən sonra İrəvan gimnaziyasına təyinat alır. 1885–1890-cı illərdə İrəvanda fəaliyyət göstərdiyi dövrdə gimnaziyada ana dili, hüsnxətt fənlərini tədris edir, pansion mürəbbisinin köməkçisi vəzifəsini daşıyır. Pedaqoji sahədə müvəffəqiyyətlərinə görə dəfələrlə mükafatlandırılan Firudin bəyə "Kollecski sekretar", "Titulyar sovetnik" və "Statski sovetnik" rütbələri verilir. 1893–1894-cü illərdə yenidən İrəvan gimnaziyasında fəaliyyət göstərir. 1895-ci ildə isə İrəvan şəhərini tərk edir. Elə həmin ildə mütərəqqi təhsil ocağı olan Qori Müəllimlər Seminariyasının "tatar şöbəsi"-nin Azərbaycan dili və şəriət müəllimi təyin edilir. 1918-ci ilə qədər Qoridə pedaqoji fəaliyyətini davam etdirir. 1897-ci ildə Vəkilovlar nəslindən olan Badisəba xanım Köçərli ilə ailə həyatı qurur. 1910-cu ildə Qori Seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı sonradan isə seminariyanın Azərbaycan şöbəsinin inspektoru vəzifəsinə təyin olunur. 1916–1917-ci illərdə seminariyanın Azərbaycana köçürülməsi üçün təşəbbüs göstərir, təkliflər irəli sürür.

### MAARİFPƏRVƏR ZİYALININ PEDAQOJİ BAXIŞLARINDA XƏLQİLİK

Firudin bəy Köçərli siyasi proseslərə qoşularaq, "Müsavat" partiyasına üzv olur. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini tədris ləvazimatı və avadanlığı ilə birlikdə öz xərcinə Qazax şəhərinə köçürür, bunun əsasında Azərbaycan Müəllimlər Seminariyası yaradılır. Firudun bəy Köçərli seminariyanın direktoru təyin olunur. 17 sentyabr tarixindən Qazax Müəllimlər Seminariyasında ilk dərslər başlayır. Sonradan Qazaxda ilk uşaq evi açır. 1918-ci il 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü seçilir, və İstiqlal bəyannaməsini imzalayır. 1919-cu il fevralın 1-də Müsavat partiyasının səyyar bürosunun Mərkəzi Komitəsinin təşəbbüsü ilə təşkil edilən Qazax şöbəsinə sədr seçilir. Sovet işğalına qədər Qazax Müəllimlər Seminariyasına rəhbərlik edir.



1884-cü ildə Qori müəllimlər seminariyasında təhsil alarkən "Təlimi-Sokrat" əsərini yazıb. İrəvan gimnaziyasında çalışdığı illərdə Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türkü" adlı dərslik tərtib edir. 1890-cı ildə İrəvanda "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaya qoyur. 1891-ci ildə "Təlimi-Sokrat" adlı kitabı Bağçasarayda "Tərcüman" mətbəəsində, 1892-ci ildə isə A.S.Puşkindən tərcümə etdiyi "Torçu və balıq" mənzum nağılı İrəvan şəhərində kitab halında çapdan çıxır. M.Y.Lermontovun "Üç xurma ağacı" və A.Koltsovun "A kişi, niyə yatıbsan?" şeirlərinin tərcüməsindən ibarət kitabı Şuşada çap edilir. "Tatar komediyaları" adlı ilk elmi məqaləsi "Novoye obozreniye" qəzetində dərc olunur. 1898-ci ildə "Ərəb əlifbası və onun qüsurları" silsilə məqaləsi "Qafqaz" qəzetində dərc olunur. 1900-cü ildə Müəllimlər Seminariyasının Ümumdünya Paris sərgisində Qori Seminariyasından nümayiş etdirilən eksponatlar sırasına F.Köçərlinin kitabları da daxil edilir. 1903-cü ildə Tiflisdə "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabı rus dilində çap edilir. Elə həmin ildə M.F.Axundovun "Aldanmış kəvakib" povestini rus dilinə çevirir. 1904-cü ildə A.P.Çexovun "At familiyası" hekayəsini tərcümə edib, kiçik bir müqəddimə ilə "Şərqi-Rus" qəzetində dərc etdirir. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasını təqdir edərək, jurnalın birinci üç aylıq fəaliyyəti barədə icmal hazırlayıb, "Tiflisskiy listok" qəzetində dərc etdirir. "İrşad" qəzetində "Bir darülmüəllimin kifayətdir" adlı məqalə ilə çıxış edərək, Azərbaycanda müstəqil Müəllimlər Seminariyası yaradılması məsələsini qaldırır. Cəlil Məmmədquluzadənin "Usta Zeynal" kitabçası haqqında eyniadlı məqaləni "Znaniye" qəzetində çap etdirir. M.F.Axundzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə Tiflisdə keçirilən təntənəli yığıncaqda məruzə ilə çıxış edib. "Mirzə Fətəli Axundov" adlı kitabı çap olunub. 1912-ci ildə uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı Bakıda "Kaspi" mətbəəsində çap olunur. 1913-cü ildə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" adlı üç cildlik əsərini tamamlayır. 1920-ci ildə "Vətən dili"nin I hissəsinin yenidən işlənməsində xidmətləri olur. Onlarla dərsliyə düzəliş edən Firudin bəy nəzəri materialı, hekayələri artıraraq, metodika və stilistikasını zənginləşdirir. Ölümündən sonra 1925-ci ildə "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabının I hissəsi, 1926-cı ildə isə kitabın II hissəsi çap edilir. Uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı isə 1967,1972 və 2013-cü illərdə çap edilir.

### QƏRARA ALINIR: MÜTTƏHİM KÖÇƏRLİNSKİ GÜLLƏLƏNSİN

1920-ci ilin mayında Qazax kommunistləri Köçərlini və digər "Müsavat" funksionerlərini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə", general-qubernator Ə.Xoyskinin etibarlı şəxsləri olmaqda ittiham edirlər. Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinə təqdimatına əsasən, ədib həbs olunur, 20-ci diviziyanın 7-ci xüsusi bölməsi xüsusi şöbəsində şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnməsi haqqında qərar çıxarılır və hökm yerinə yetirilir. Güllələnmə haqqında çıxarılmış qərarda belə deyilirdi: "Mən, iyirminci diviziyanın xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firudun bəy Köçərlinskinin əksinqilabçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilab Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinski özünün hakimiyyətindən və böyük səlahiyyətindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq göstərmişdir. Köçərlinski Qazaxda "Müsavat" partiyasının sədri olarkən millətçilik ehtiraslarını qızışdırmışdır. Nəticədə qonşu millətlər arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahat heç də inandırıcı deyildir... Müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini nəticəsiz qoymaq (rədd etmək) lazımdır. Onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsız olaraq qanlarının tökülməsinə səbəb ola bilər. Qərara alınır: müttəhim Köçərlinski güllələnsin.

Təsdiq edirəm: 7№-li Xüsusi bölmənin rəisi Liberman

Təsdiq edirəm: Fövqəladə komissar H.Sultanov".

1920-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti bolşevik-daşnak qüvvələri tərəfindən süquta uğradılandan sonra başlanan faciə və məqsədli terror qurbanlarından biri Firudin bəy Köçərli olmuşdur. O, Gəncədə heç bir əsas olmadan güllələnmişdir. Millət aşiqi, maarif fədaisi olan Firidun bəy Köçərlinin gənc nəslin təhsil almasında, maariflənməsində əvəzsiz xidmətləri olmuşdur. Qədirbilən xalqımız böyük mütəfəkkirin işıqlı əməllərini heç vaxt unutmayacaq. Bu gün maarifpərvər ziyalı Firudin bəy Köçərlinin böyüyüb boya-başa çatdığı Qafqazın incisi olan Şuşa böyük inkişaf dövrünü yaşayır. Şuşa xalqımız üçün tarixi, mədəni, mənəvi və rəmzi əhəmiyyətə malikdir. Qarabağ xanlığının tarixi paytaxtı, mədəniyyət məbədi olan bu qədim şəhər böyük mütəfəkkirlər diyarıdır. Ümummilli Lider Heydər Əliyev Qarabağın Azərbaycan üçün müstəsna əhəmiyyəti olduğunu bildirərək demişdi: "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Təbii ki, qısa bir zamanda Şuşa Qarabağımızın və bütövlükdə Azərbaycanımızın elm, mədəniyyət və təhsil mərkəzinə çevriləcək, əvvəlki şöhrətini özünə qaytaracaqdır. Şuşanın musiqi, mədəni və təhsil həyatı öz əvvəlki ahənginə qovuşacaqdır. Yenidən Firudin bəy Köçərlilər, Üzeyir bəy Hacıbəylilər, Xurşidbanu Natəvanlar bu torpaqdan boy verəcəklər, yetişən fidanlar böyük mütəfəkkirlərin yaratdığı salnamələri əxz edə-edə Şuşanın tarixi yaddaşına səyahət edəcəklər.

***Zümrüd BAYRAMOVA***

# Bizdən çox dayəsinə oxşayan uşaqlar...



***Xeyr, burada söhbət xarici görkəmdən getmir. Təbii ki, hər bir uşaq öz ata-anasına, nənə-babasına və digər yaxın qohumlarına oxşayır. Lakin bir uşaq üçün öz doğmalarına xarici görkəmi ilə oxşamasından daha çox xasiyyət və xarakterinin oxşaması, öz doğma ana dilində danışa bilməsi vacibdir. Bəs belə isə bizdə vəziyyət necədir? Uşaqlarımız hər cəhəti ilə özümüzə oxşayırmı? Yoxsa biz onları vaxtından əvvəl dayələrə etibar edib karyeramız və yaxud da rahatlığımız arxasınca gedərkən övladımızın ana dilində danışmasını, hər cəhətdən özümüzə bənzəməsini də özümüzlə birlikdə ondan uzaqlaşdırırıq. Bu barədə danışaq...***

MÜNASİBƏT

### Birinci uşaq, sonra karyera... iş...

Hər bir qadının öz karyerasını qurması, bir işin sahibi olması çox vacib məsələdir. Çünki illərlə təhsil alan, təhsilin müəyyən pillələrində irəliləyən qızlarımız sabah ailə qurandan sonra bütün bu əziyyətlərin üzərindən xətt çəkib evdə oturmamalıdır. Onlar zaman-zaman karyeralarını qurmalı, haradasa çalışmalı, həm cəmiyyətə xeyir verməli, həm də ailə büdcəsinin formalaşmasına müəyyən qədər köməklik göstərməlidirlər.

Lakin bundan da vacib və həssas başqa bir məsələ var. Bu, dünyaya gətirdiyimiz uşaqların sağlam, gözəl tərbiyəyə, keyfiyyətlərə malik olması, ana dilimizdə mükəmməl danışa bilməsi, adət-ənənələrimiz, milli dəyərlərimiz fonunda böyüməsidir. Biz karyeramızı istənilən vaxt qura bilərik, çalışmaq üçün bir iş tapa bilərik. Lakin uşaq anadan olandan sonra inkişafı mərhələli şəkildə davam edir və övladlarımızın gözü həyata necə açılırsa, onlar nəyi necə görürlərsə, o cür mənimsəyir və böyüyürlər. Arxada qalan illər heç bir vəchlə geriyə qayıtmır və müəyyən şəkildə formalaşan uşağı sonralar istəsək belə, dəyişdirə bilmirik.

Məhz buna görə də birinci bunları düşünməliyik ki, sabah nə övladımız, nə də özümüz əziyyət çəkək. Beləliklə, ailə həyatı quran hər bir qadın qarşıda övladı olacağını düşünərək karyerası ilə əlaqədar yola çıxmalıdır. Bunun üçün, necə deyərlər, yüz ölçüb, bir biçmək lazımdır ki, sonra övladımızda xarakterimizdən əsər-əlamət olmayanda narahatlıq keçirməyək. Hələ üstəlik ingilis, alman, rus dilli dayələrlə böyüyən uşaqlarımızla heç olmasa, işdən sonra söhbət etməməklə onların ana dilindən kənar böyüməsinə səbəb olmayaq.

Beləliklə, məsələyə hansı aspektdən yanaşsaq, belə qənaətə gəlmək olar ki, uşaqların dayəyə verilmə yaşı haqqında düşünmək vacibdir. Eyni zamanda, dayənin hansı dilə, mədəniyyətə malik olması da xüsusi şəkildə analiz edilməlidir. Ana uşaqla hansı yaşa qədər bir yerdə olmalıdır, sonra onu kimə etibar edib karyerası dalınca getməlidir, bütün bunlar götür-qoy edilmədən bir yola çıxmaq təbii ki, qarşıda problemlərin yaranması ilə nəticələnə bilər.

### Körpənin ana südü kimi, ana nəvazişinə ehtiyacı var

Ana ilə yeni doğulan uşaq nə qədər bir yerdə olarlarsa, bu, uşağın sağlam böyüməsinə, ananın isə uşağın süd ehtiyacını ödəməsinə səbəb yaradır. Baxmayaraq ki, dövlətimiz tərəfindən əmizdirən, eyni zamanda işləyən analara müəyyən imtiyazlar var, lakin bu, ana-balanın bir yerdə daha çox olmasına deyil, sadəcə körpənin qidalandırılmasına xidmət edir. Birlikdə olmaq uşağın ana ilə təmasının daha çox olması, bu da uşağın inkişafında müsbət təsir deməkdir.

Uşağın dayə himayəsinə verilməsi isə elə ciddi bir prosesdir ki, bu məsələdə tələskənlik və düzgün olmayan seçim heç də yaxşı nəticə verə bilməz. Burada xüsusilə südvermə dövrü, uşağın yaşına diqqət yetirilməlidir.

Bu barədə sosioloq Lalə Mehralı deyir: Fikrimcə, 2 yaşına qədər ana övladından ayrıla bilməz. Çünki bu dövrdə ana həm uşağa süd verir, həm də uşağın ana nəvazişinə, nəfəsinə ehtiyacı var. Qadın var ki, müəyyən səbəblərdən hökmən işləməlidir, qadın da var ki, karyera qurmaq istəyir. Bu məsələyə həssaslıqla yanaşmaq lazımdır. Dayə düzgün seçilməli, dayə ilə qaldığı vaxtdan sonra ana uşağa hökmən vaxt ayırmalı, ona qayğı göstərməlidir. Əks təqdirdə uşaq ana nəvazişindən kənarda qala, dayə ilə birlikdə daha çox olduğundan onun xasiyyət və xarakterini mənimsəyə bilər ki, bu da gələcək üçün həlli çətin olan problemdir.

Lalə xanım rastlaşdığı bir hadisədən danışmaqla uzunmüddətli dayə yanında qalan uşaqların son aqibətini belə xarakterizə edir: tanıdığım bir qadın azyaşlı uşağını əvvəldən dayəyə etibar etmişdi. Bağça və məktəbdən sonra da uşaq dayə yanında qalırdı. Dayə rusdilli olduğu üçün və yəqin ki, evdə uşaqla söhbət edilməməsi uşağın ana dilində bir kəlmə belə danışa bilməməsi ilə nəticələnmişdi. Bax, bu cür halların yaşanmaması üçün valideynlər daha məsuliyyətli olmalı, işi, karyerası ilə bərabər, övladına da vaxt ayırmalıdır.

Belə uşaqlara dillə yanaşı, həm də dayələrinin xarakter və xasiyyəti sirayət edir. Onlar dayələrin yanında saatlarla qalmaqla onun məxsus olduğu xalqın mədəniyyətini, adət-ənənəsini əxz etmiş olurlar. Eyni zamanda dayələrinə məxsus xasiyyətlə, xarakterlə böyüyürlər. Nəticə isə belə olur ki, uşaqlar bizdən çox dayələrinə oxşayır.

Qayğı, nəvaziş o deməkdir ki, valideyn uşağa vaxt ayırsın, onunla birlikdə kitab oxusun, söhbət etsin, film izləsin, ona nağıl danışsın, oyun oynasın. Lakin bunların hər birindən özünü uzaq tutan valideynlər bəlkə də karyerada qazana biləcək, lakin övlad tərbiyəsində bu, mümkün olmayacaq.

### Dayə seçimində yanılarıqsa...

Bu məsələdə tələsmək yanılmaq deməkdir. Uşağın etibar ediləcəyi dayə yetərincə araşdırılmalı, sağlamlıq vəziyyətindən, xasiyyət-xarakterindən tutmuş cinayət işlərinə qarışıb-qarışmaması araşdırılmalıdır.

Dəfələrlə dayələr tərəfindən uşaqlara şiddət tətbiqi, evlərdən oğurluq edilməsi hadisələri ilə qarşılaşmışıq. Belə olan təqdirdə ona etibar etdiyimiz uşaqların taleyi də təbii ki, təhlükə ilə üz-üzə qalır. Odur ki, valideynin uşağı üçün tutduğu dayəni yaxından tanıması, üstəlik ondan müxtəlif arayışları tələb etməsi vacibdir. Dayənin isə həmin sənədləri verməl borcudur.

Digər tərəfdən isə analar uşaqlarını ilk gündən dayəyə etibar edib saatlarla ondan ayrı qalmamalıdır. Birinci-alışdırma dövrü müvəffəqiyyətlə keçməlidir ki, uşaq dayəyə alışa bilsin. Çox təəssüf ki, bunun dəfələrlə şahidi olmuşuq ki, analar uşağı ilk gündən dayələrin yanına qoyub işlərinin ardınca qaçır. Uşaq isə saatlarla ağlayır, sakitləşmək bilmir. Bu da onun psixoloji vəziyyətinə mənfi təsir göstərir. Ana hansısa bir işə düzəlməmişdən əvvəl uşağı üçün dayə tapmalı, onu alışdırmalı, sonra işə getməlidir.

İkinci- uşağın valideynlərlə birlikdə olduğu dövrdür ki, bu daha diqqət yetirilməli məqamdır. Çünki saatlarla dayə yanında qalan uşağın qayğıya, nəvazişə ehtiyacı var. O, bunları valideynlərindən, xüsusilə anasından görməyəndə yarımçıq böyüyür sanki. Onun uşaq dünyası tamlaşmır. Bütün bunların baş verməməsi üçün uşağa saatlarla vaxt ayrılmalıdır.

Qəribə bir məsələ ilə qarşılaşırıq. Valideynlər evlərinə kamera yerləşdirib, dayənin uşaqla rəftarını izləyirlər. Əgər dayə hər hansı səhvə yol verərsə, onunla yollarını ayırır, yeni dayə axtarışına çıxırlar. Lakin nədənsə, dayədə tapdıqları mənfi keyfiyyətləri özlərində axtarmaq istəmirlər. Məsələn, uşağa lazımi vaxt ayırmamaları kimi, onun üstünə çığırmaları, qorxutmaları, hələ yeri gələndə sillə endirmələri kimi...

Həqiqətən də dünyaya uşaq gətirmək hələ ana olmaq deyil. Ata adını daşımağa başlamaq hələ ata olmaq deyil. Bunun üçün zamana ehtiyac var ki, zaman özü göstərsin, kim ana-ata adına layiqdir, kim bu adı daşımağı haqq etmir. Odur ki, dünyaya gətirdiyimiz və gətirəcəyimiz uşaqların taleyi bizi maraqlandırsın. Onları necə saxlayacağıq, necə böyüdəcəyik, karyeranımı seçirik, yoxsa ən azından dövlətin bizə verdiyi 3 illik analıq məzuniyyəti dövründə uşağımızı böyüdəcəyikmi, onu dayə yanına qoyub işləməyə, yoxsa mağaza-mağaza gəzməyə gedəcəyikmi, dayə il uşağı bir otaqda qoyub o biri otaqda Tiktok-da gəzib, seriallar izləyəcəyikmi, hansını edəcəyik? Bütün bunları uşağı dünyaya gətirməzdən əvvəl fikirləşmək lazımdır. Əks təqdirdə təbii ki, bizdən çox dayələrinə oxşar, öz dilimizdə bir kəlmə belə danışa bilməyən uşaqların ata-anası deyil, sahibi olacağıq. Bu barədə düşünmək gec deyil. Düşünək ki, səhv yola qədəm qoymayaq. Yoxsa, bu səhv yol gələcək üçün həlli qloballaşan problemləri "hədiyyə" edəcək bizə...

**Mətanət Məmmədova**









# Qız beşikdə, cehiz eşikdə

*Bir vaxtlar bir süpürgə və bir qazandan ibarət olan cehiz adəti indi ailələrin yarışına çevrilib...*

***"Qız beşikdə, cehiz eşikdə" ata sözünü güman ki, çoxunuz eşitmisiniz. Aramızda elə valideynlər var ki, bu məsələ, sözün əsl mənasında, tam əməl edir, hətta qız övladı doğulmamışdan öncə ona cehiz tutmağa başlayır. Elə valideynlər də var ki, bu işi son ana saxlayır, toydan bir neçə ay əvvəl bu məsələni həll edir. Qız övladı olan valideynlərin həm ən böyük problemi, həm də unudulmaz zövqü olan cehiz adətimizdən bəhs edəcəyik.***

### Cehiz adətinin kökü

Bəşəriyyət var olduğundan bəri analar-atalar qız köçürəndə ona müəyyən əşyalar verərmiş. Tam mənası ilə cehiz sayılmazmış, amma simvolik məna kəsb edərmiş. Məsələn, nənəm söylərdi ki, onun cehizi bir süpürgədən və bir qazandan ibarət olub. Süpürgənin verilməsində məqsəd yeni gəlinin təmizkar, səliqəli olmasına işarə idi, qazan isə ruzili olmaları üçün bir simvol idi. Nənəmin söylədiyinə görə, onun anası ərə gedəndə valideynləri ona bir ləyən və bir aftafa cehiz veriblər, hər axşam həyat yoldaşı işdən gələndə təzə gəlin o ləyəndə aftafa ilə ərinin ayaqlarına su tökərmiş.

Zaman irəlilədikcə cehizin sayı və dəyəri də artıb. Valideynlər mümkün qədər daha çox əşya cehiz verib, hətta daha dəyərli cehiz verməki barədə bir növ yarışa giriblər. O zamanların ən məşhur cehiz əşyaları isə əldə işlənmiş bəzək əşyaları, əllə naxışlanmış yorğan-döşək üçün üzlər, süfrələr və s. idi.

İllər ötdükçə cehizə qab-qacaq, bahalı parçalar, uzaq ölkədən gətirilmiş ipək, zərxara paltarlar da əlavə edilməyə başladı. Amma bunları maddi imkanı daha yaxşı olan ailələr edə bilirdi. Elə o zamandan da cehiz adətində bölünmə başladı. Kasıb ailələrinin cehizi ayrı, varlıların cehiz anlayışı isə ayrı oldu.

### Keçmişdə cehizlik əşyalar

Keçən əsrin əvvəllərində maddi vəziyyəti normal olan ailələrin gəlinlik qıza verdiyi cehiz də o qədər böyük olmurdu. Bunlar bir neçə qab-qaşıq, iki nəfərlik qırmızı yorğan və qırmızı məxmərdən üzlənmiş böyük taxt döşəyi, iki yun döşəkçə, iki ədəd mütəkkə, bir böyük nazbalış, qayınata-qayınana üçün iki kiçik döşəkdən ibarət idi.



Nişanlı qızın özü, yaxud qız evi qadınları tərəfindən bəy üçün hazırlanmış tikmə əl işləri, güləbətinli tirmə araqçın, ipək daraqqabı, saatqabı, zərxaradan on iki ədəd pul kisəsi, 20-30 cüt çarıqbağı, qələmdanqabı və s. də vardı. Məişət üçün dəstərxan süfrə, əl-üz dəsmalı, isti qabları qaldırmaq üçün yeddi cüt tutqac da cehizə daxil idi.

Gəlinin özü üçün sürmədan, ətirqabı, qayçıqabı, iynəqabı, sayı yeddi olmaqla iynə, güləbətinli pərdəbağı, ipək tumanbağı, taxça və güzgü pərdəsi, qara dabandaşı da cehizdə olurdu. Bunlardan başqa bir-iki xalça-palaz, camadan-xurcun, saxsı qab-qacaq, nehrə, küpə, kuzə, aşsüzən, yeddi taxta qaşıq, taxta boşqab, oxlov, çömçə, çörəkqabı, bazardan alınmış təzə, yaxud yenicə qalaylanmış mis qab-qacaq, gəlinin yuyunması üçün böyük teşt, qazan, mis aftafa-ləyən, hamam sətil (bir növ stul), altı kabab şişi və s. metal əşyalar da cehizə qatılırdı.

### Müasir cehiz adəti: hər şey olsun

Daha cox müsəlman aləmində əməl edilən cehiz adəti şişirdilməsə olduqca gözəl ənənədir. Təəssüf ki, indi cehiz dedikdə adət-ənənə və bu adətin gözəlli düşünülmür, əksinə, qızın ailəsinin nə verəcəyi, nə qədər xərc çəkəcəyi, elektronkanı hansı marka alacağı, mebelin haradan sifariş ediləcəyi və s. kimi məsələlər marağa səbəb olur.

Dövrümüzdə qız ailəsi tərəfindən cehiz olaraq, əsasən, qab-qacaq, yorğan-döşək, elektrik avadanlıqları, dekorativ əşyalar – bir sözlə, zəruri olan bütün əşyalar verilir. Maddi vəziyyəti yaxşı olmayan qız ailəsinə oğlan tərəfi dəstək verir, mebeli oğlan valideyni alır. Maddi imkanı nisbətən yaxşı olan ailələr yataq və qonaq otağı üçün mebel dəsti, daha yaxşı imkana malik olanlar isə mətbəx mebeli və uşaq otağı dəsti də alırlar. Bəzi hallarda qız atası bu cehizin yığılması üçün qızına ev də cehiz verir. Bütün bu bahalı cehizin, dəbdəbəli ev əşyalarının verilməsi cox vaxt qızın baş ucalığı və şanşöhrət üçün edilir.

### Qız cehizində mal-qara və ev quşları da olur

Bir-iki xırda nüansı nəzərə almasaq, Azərbaycanın bütün bölgələrdə cehiz eyni formada tutulur, yalnız cənub bölgəsindən başqa. Cənub bölgəsində, əsasən də, Lənkəranda cehiz adəti bir qədər fərqlidir. Lənkəranın Veravul kəndindən olan Asimə Nəsirli deyir ki, Lənkəranda analar qızlarına 10-11 yaşında olandan cehiz tutmağa başlayırlar: "Amma sonra, qız nə vaxt nişanlandı, cehiz almaq ailədə ən prioritet sahəyə çevrilir. Əksər hallarda maddi imkandan asılı olmayaraq valideynlər qızı bütün lazımi əşyalarla təmin etməyə çalışırlar.

Qız toyundan sonra, oğlan toyundan öncə, müəyyən edilmiş bir gündə bütün qohumlar qız evində təşkil olunmuş qonaqlığa gəlirlər və hərə cehiz üçün bir hədiyyə gətirir. Lənkəranda cehiz mədəniyyəti bir qədər fərqlidir, ərə gedən qızlara böyük ləyən dəstləri, toy və ya digər mərasimlərdə istifadə etmək üçün iritutumlu qazanlar və teştlər, 5 və ya 6 dəst namaz üçün canamaz verilir. Bundan əlavə gəlinin gedəcəyi evdə yaşlı insan varsa, onlara xüsusi nimdər (döşəkcə), misdən hazırlanmış aftafa-ləyən də verilir".

Asimə xanımın sözlərinə görə, Lənkəranda hətta cehizə mal-qara – inək, qoyun, at, ev quşları- qaz, ördək, toyu-cücə də əlavə edilir. Cehiz almaq üçün bankdan kredit alanların da olduğunu söyləyən Lənkəran sakini qız cehizində əksər vaxt həm yataq, həm qonaq otağı mebelləri, həm də mətbəxt mebeli də verildiyini dedi.

Bu günlərdə mətbuatda bir xəbər yayıldı, yeni ailə quran qızın cehizində qoyun olmadığı üçün ər evində zorakılığa məruz qalıb. Daşkəsəndə 19 yaşlı gəlin Aişə Abdullayeva cehiz olaraq qoyun gətirmədiyinə görə döyülüb. Gəlin getdiyi evdə qayınatası və qayınanası tərəfindən şiddətə məruz qalan gənc qız yaxınları tərəfindən dərhal xəstəxanaya yerləşdirilib. Ona kəllə-beyin travması diaqnozu qoyulub.

### Cehizdə yemək sandığı

Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində cehiz adətində maraqlı xırdalıqlar var. Qız üçün alınan bütün cehizlər toydan öncə bir növ sərgi halına salınır, kəndin bütün əhalisi cehizə baxmağa gəlir. Qız evindən bir nəfər cehizdəki əşyaları bir-bir nümayiş etdirərək kimin aldığını, neçəyə alındığını deyir.

Qız cehizi oğlan evinə toy günü gəlinin özü ilə birgə gedir. Daha maraqlısı isə odur ki, cehizin ən önəmli atributlarından biri ağzına qədər yemək və şirniyyatla doldurulmuş sandıq olur. Gəlin bir həftə oğlan evinin mətbəxində bişəndən yemir, anasının sandığa qoyduqları 7 gün ona bəs edir.

### Cehiz əşya deyil, olmamalıdır

İstənilən halda cehiz adəti olduqca gözəl və gərəkli ənənədir, bir şərtlə ki, "ağ etməyəsən". Cehiz ailələrin mal-mülk müsabiqəsi deyil, milli adətdir. Cehizində nəyin olması və nəyin olmaması önəmli deyil, önəmlisi odur ki, ər evinə köçən qız ata yurdundan əliboş yola salınmır. Amma cehizsiz ailə qurmağı heç bir halda dərd etmək lazım deyil. Bizim cehizsiz ailə quran o qədər gənclərimiz var ki, öz əməkləri ilə hər şeyə sahib olublar. Önəmli olan ər evinə mənəvi cehiz – ismət, abır-həya apara bilməkdir.

Bir yataq örtüsünə 700 manat, bir çilçırağa 1000, bir meyvə qabına 300, heç vaxt qıyıb yemək yeməyəcəyi qab dəstinə 5000 manat pul verib misli görünməmiş cehiz tutanlar sonra o qabları istifadə etməyə də qıymırlar. Çox çıxıb mətbuata, cehiz üstə gah qız özünü asır, gah ata borcdan bezib intihara əl atır. Nə məcburdu ay camaat? Niyə siz uşağınıza içində adi yemək yeyəcəyi qab dəstini 9 minə almalısınız? Niyə ömründə bir dəfə qıyıb içində su içməyəcəyi 12 stəkana 2 min pul verirsiniz? İldə bir dəfə - yeni ildə içinə meyvə qoyub selfi edəcəyi meyvə qabına niyə 700 manat verirsiniz?

Təəssüf ki, bəzi qızlar bu məsələdə çox israrçıdı, valideynini hədələyir, "almasanız özümü öldürəcəm" deyə qorxudur. O qızlar beyinlərinə niyə ailə həyatında işlərinə yarayacaq informasiyalar yeritmir, özünü inkişaf etdirmir, adi şüşədən hazırlanıb axmaqlara od qiymətinə sırınan qaba görə min cür alış-veriş səhifəsi gəzir?

Ən adi bir misal, bir neçə il əvvəl yüksək məbləğdə kreditə girib övladı üçün cehiz düzən valideynlərin o qızları həmin dəbdəbəli qab-qacaq komodları, dolabları dəyərinə-dəyməzinə satışa çıxarır. Hər yer doludur bu cür elanlarla - lalafo, tap.az, instaqram və facebookdakı satış səhifələri. 5-6 min manata alınan komodlar 100-150 manata satılır, amma heç kim almır. Ehtiyacdan yox, dövr dəyişdiyi, daha qonaq otağına mətbəx qab-qacağı düzülmədiyi üçün.

Əziz xanımlar, unutmayın, evinizin ən dəyərli qonağı elə siz özünüzsünüz. Özünüzə qıymadığınız qabı ya almayın, ya da almısınızsa elə işlədin getsin. Heç bir əşya sizdən daha dəyərli deyil, bir gün ya qırılacaq, ya da ölümünüzdən sonra dəbdən düşüb deyə zibiliyə atılacaq. Minlərlə manatlıq lazımsız əşyalara görə ömrünüzü kreditlərlə qısaltmayın.

***Lalə Mehralı***

## "Nar" müştəri məmnuniyyəti üzrə beynəlxalq sertifikata layiq görüldü

"Nar" müştəriyönümlülük strategiyasının beynəlxalq səviyyədə tanınması ilə daha bir uğura imza atdı. Mobil operator ISO 9001:2015 Keyfiyyətin İdarə olunması və ISO 10002:2018 Müştəri Məmnuniyyətinin İdarə olunması üzrə beynəlxalq sertifikatlara layiq görülüb. Qiymətləndirilmə aparıcı beynəlxalq yoxlama və sertifikatlaşdırma şirkəti olan "Bureau Veritas Group" tərəfindən aparılıb. "Nar" müştərilərinə etibarlı şəkildə yüksək keyfiyyətli xidmətlər təqdim etmək öhdəliyini davamlı şəkildə nümayiş etdirərək Beynəlxalq Standartlaşdırma Təşkilatının meyarlarına cavab verib.

"Nar"ın Baş İcraçı Direktoru Qunnar Panke bildirib ki, ISO sertifikatları mobil operatorun müştəri məmnuniyyətinin təmin olunması məqsədini bir daha təsdiq edir: "Müştəriyönümlülük və sərfəli qiymət "Nar"ın əsas dəyərləridir. Bu sertifikatlar bizim hazırda sistematik və müştəriyönümlü proseslərin uğurla tətbiq olunmasını əks etdirir. Biz keyfiyyətin idarə edilməsində ən yüksək standartları saxlamaq üçün bu proaktiv yanaşma ilə davam edəcəyik" – Qunnar Panke vurğulayıb. ISO və ya Beynəlxalq Standartlaşdırma Təşkilatı məhsulların, xidmətlərin və sistemlərin keyfiyyətini, təhlükəsizliyini və səmərəliliyini təmin etmək üçün beynəlxalq səviyyədə tanınmış standartları müəyyən edən qlobal qurumdur. ISO standartlarına uyğunluq mükəmməlliyə sadiqliyi göstərir, dünya miqyasında müxtəlif sənaye sahələrində etimadı və etibarlılığı gücləndirir.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.




ARAŞDIRMA

# AŞPA dağıdıcı müxalifəti sevindirdi



***Azərbaycanın dünya miqyasında yerinin və rolunun möhkəmlənməsi, xüsusilə də, 30 il erməni işğalı altında olmuş torpaqlarını azad etməsi yerli və xarici məkrli dairələri ciddi şəkildə narahat edib. Bu səbəbdən də, Azərbaycana qarşı boş və mənasız açıqlamalarını qərəzli qətnamələrinin qəbulu ilə əvəzləyiblər. Almaniya və Fransanın müdaxiləsi və müəllifliyi ilə Azərbaycanın AŞPA-da səsvermə hüququnun məhdudlaşdırılması barədə qəbul edilən qərəzli qətnamə də ümumilikdə ölkəmizin möhtəşəm uğurlarına, qələbələrinə olan qısqanclıq hissindən irəli gəlir.***

30 il AŞPA Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməyib, yalnız ara-sıra heç bir hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə kifayətlənib. Halbuki, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. Belə bir anormal qərarın qəbul edilməsi ölkəmizdə keçiriləcək 7 fevral prezident seçkiləri dönəminə təsadüf etdiyindən heç şübhəsiz ki, məkrli qüvvələr seçki prosesinə xələl gətirmək məqsədi güdüblər. Nəzərə alınmalıdır ki, AXCP, Müsavat, Milli Şura başbilənləri seçkilərin boykot edilməsi barədə anormal qərar veriblər. Bununla da öz acizliklərini və zəifliklərini bir daha nümayiş etdiriblər. Təbii ki, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı boykot qərarını öz ağılları və düşüncələri əsasında verməyiblər. Onları bu təxribata məcbur edən qüvvələr var, hansı ki, həmin qüvvələrin bir qismi AŞPA-da Azərbaycan haqqında qərəzli və qurum üçün rüsvayçı qətnamə qəbul etdi. Əgər belə olmasa idi Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Fuad Qəhrəmanlı və digərləri azərbaycanlı olduqlarını sübut etmək üçün qurumun qərarına etiraz edər, AŞPA prezidentinə məktub ünvanlayardılar.

### Tərbiyədən və əxlaqdan kənar olanlar dağıdıcı düşərgəyə toplaşıb

Görünən ondan ibarətdir ki, bu məxluqlar qərarın qəbulundan sevincək olublar, bir-birini təbrik edir, sosial şəbəkələrdə məmnunedici statuslar paylaşırlar. Məsələn, AXCP sədri Əli Kərimli paylaşdığı statusunda yazır: "Biz Avropadan uzaqlaşdıqca, Ermənistanın dostları artacaq. Bizim Avropa ilə döyüşməyimiz Ermənistanın müttəfiqlərini çoxaldacaq. Anti-Avropa siyasəti onsuz da bərbad gündə olan iqtisadiyyatımıza güclü zərbə vuracaq. Azərbaycanın maddi yardım, sərmayə, kredit, texnologiya əldə etmək imkanları məhdudlaşacaq. Avropadan imtina edib, Mərkəzi Asiyalaşmaq siyasəti davam etdikcə, sadə azərbaycanlının Avropaya vizasız gediş-gəliş arzusu arzu olaraq qalacaq, repressiyalar davam edəcək, məmur özbaşnalığı, hüquqsuzluq və yoxsulluq artacaq. Xalqımız fərqində olmalıdır: rejimin bu anti-Avropa siyasətindən itirən təəssüf ki, biz azərbaycanlılar olacaq".

Eyni sayıqlamanı Milli Şuranın qeyri-ciddi məxluqu Gültəkin Hacıbəyli də səsləndirib, təbii ki, öz səviyyəsinə uyğun olaraq: "Dağıl, ay Avropa, üstünə İrasim gəlir və ya qara məni basınca mən qaranı basım. Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti qurumda fəaliyyətini dayandırdı". AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib". Nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib. Dağıdıcı müxalifətin "bomoj"u, AXCP Ali Məclisinin sədri Nurəddin Məmmədli paylaşdığı statusu ilə tərbiyədən və əxlaqdan kənar məxluq olduğunu ortaya qoyur: "Ölkədə insan hüquq və azadlıqlarının ifrat dərəcədə tapdandığına görə nümayəndə heyətimiz AŞPA-dan qovuldu. Ermənistanda revanşist meyllərin artdığı dövrdə, Azərbaycanın öz haqlarını qoruması üçün Avropa Şurası kimi mühüm beynəlxalq platformadan məhrum olması gələcəkdə ciddi problemlərin yaranmasına səbəb ola bilər. Nəzərə alsaq ki, insan hüquq və azadlıqlarının pozulması səbəbindən Azərbaycana qarşı sanksiyaların tətbiq olunması Avropa İttifaqı və ABŞ-ında gündəmindədir, ölkəmizin beynəlxalq səviyyədə müdafiə imkanlarını heçə endirəcək. Bu səbəbdən ölkəmizdə insan haqlarını tapdamasının heç bir perspektivinin olmayacağı qəbul olunmalıdır".

### Dağıdıcı müxalifət və xaricdəki antimilli ünsürlər Azərbaycan xalqına düşmən kəsiliblər

Bir sözlə, dağıdıcı müxalifət düşərgəsinin satqın və xəyanətkar məxluqları və xaricdəki antimilli ünsürlər ermənipərəst təşkilatların ölkəmizə qarşı qərəzli qərarlarından xoşhal olublar. Bu da bir daha onu təsdiq edir ki, dağıdıcı müxalifət və xaricdəki antimilli ünsürlər Azərbaycan xalqına düşmən kəsiliblər. Həm də təsdiq olunur ki, onlar üçün heç bir dəyər və anlayış deyilən məfhum yoxdur. Qürur və şərəfdən də uzaqdırlar. Düşünmürlər ki, Azərbaycanda doğulublar, ölkəmizin suyunu için, çörəyini yeyiblər, hər cür naznemət içində yaşayıb, özlərinə gözəl imkanlar qazandırıblar. Xaricə üz tutub, orada yaşamaq da Azərbaycanda əldə etdiklərinin üstündən xətt çəkmək demək deyil. Lakin fakt budur ki, Azərbaycanın dağıdıcı müxalifəti və xaricdəki antimilli ünsürlər çox asanlıqla Azərbaycanın milli və dövlətçilik maraqlarına zərbə vurmağa çalışırlar. Əminəm ki, bir gün onlar etdiklərinə görə peşman olacaqlar və ya hüquq-mühafizə orqanları onları peşman edəcəklər. O zaman isə artıq gec olacaq. Necə deyərlər, sonrakı peşmançılıq fayda verməz.

**İLHAM ƏLİYEV**

# "Bu il Kəlbəcərə də qayıdışın şahidi olacağıq"




MÜNASİBƏT

"Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra keçmiş məcburi köçkünlərin öz dədə-baba yurdlarına qayıdışını təmin etmək üçün xüsusi "Böyük Qayıdış" konsepsiyasını hazırladı". Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib. Deputatın sözlərinə görə, Qarabağa qayıdış konsepsiyasının həyata keçirilməsi ilə əlaqədar bütün dövlət qurumları müəyyən öhdəliklər götürdü: "Aidiyyəti qurumlar da bu şərəfli missiyanı yerinə yetirmək üçün prezidentin birbaşa nəzarəti altında mərhələli şəkildə bu işi təşkil etdi. Biz işğaldan azad olunmuş bir çox ərazilərə keçmiş məcburi köçkünlərin geri dönüşünün şahidi olmuşuq. Bu gün də köç prosesi uğurla davam etdirilir. Cənab Prezident İlham Əliyev dəfələrlə dədə-baba yurdlarına qayıdan keçmiş məcburi köçkünlərlə həmin ərazilərdə görüşüb. Qardaş ölkənin prezidentləri bu əraziyə səfərlər etdilər, xarici diplomatların, Azərbaycanda fəaliyyət göstərən səfirliklərin, Azərbaycana təşrif buyuran bir çox xarici qonaqların bu ərazilərə səfərləri təşkil edilib. Bunlarla yanaşı biz suverenliyimiz 2023-cü ilin sentyabrında bərpa olunduqdan sonra Cənab Prezident yerli televiziya kanallarına müsahibələri zamanı da bu il bizlər üçün çox önəmli olan Xankəndi, Xocalıya da keçmiş məcburi köçkünlərin qayıdacaqlarının mesajını verdi. Bu il Kəlbəcərə də qayıdışın şahidi olacağıq. Eyni zamanda, yaşayış üçün istifadə olunan bir çox kəndlər və rayon mərkəzləri var ki, oraya da mərhələli şəkildə məcburi köçkünlər qayıdır. Ən qısa zamanda bu proses yekunlaşacaq".

Deputat bildirib ki, yalnız məcburi köçkünlərin dədə-baba yurdlarına qayıdış məsələsi öz həllini tapmır, eyni zamanda onların məşğulluq məsələləri də gündəmdədir: "Həmin vətəndaşların icma fəaliyyətinin təşkili ilə əlaqədar də vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları, aidiyyəti qurumlar tərəfindən layihələr həyata keçirilir. Həmin ərazilərə adaptasiya prosesləri mütəmadi olaraq araşdırılır. Daimi yaşayışın təmin edilməsi və bu insanların ərazilərə uyğunlaşması üçün xüsusi işlər görülür. Unutmamalıyıq ki, vaxtı ilə ərazilərindən çıxan keçmiş məcburi köçkünlərin əksəriyyəti gənc idilərsə, indi yaşlanıblar. O insanların övladlarının çoxu Qarabağ bölgəsində olmayıblar. Oraya köçən insanların daha faydalı olmaları üçün xüsusi layihələr keçirilir, ərazilərin potensialına uyğun yeni ixtisaslara yiyələnilməsi məsələləri öz həllini tapır. Azərbaycan dövləti keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması ilə əlaqədar qarşımıza qoyduğumuz bütün məqsədləri mərhələli şəkildə həyata keçirir. Bizə bu zəfəri, xoş müjdəli günləri yaşatdığı üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Ordumuza, zabit, əsgərlərimizə çox sağ olun deyirik ki, torpaqlarımızı işğaldan azad etdilər, yenə də həmin ərazilərdə vətəndaşlarımızın təhlükəsizliklərini yüksək səviyyədə təmin edirlər. İnanırıq ki, soydaşlarımızın geri qayıtması ən sürətli və ən keyfiyyətli şəkildə Azərbaycan dövləti tərəfindən həyata keçiriləcəkdir".

**Söylü Ağazadə**

# Xankəndi şəhərində ilk mobil operator mağazası fəaliyyətə başladı

***Azad edilmiş ərazilərin dirçəlişinə dəstək verməyə davam edən Bakcell Xankəndi şəhərində rəsmi diler mağazasını təqdim edən ilk mobil operator oldu. 24 yanvar tarixindən etibarən, Qarabağ universiteti ilə üzbəüz ünvanda yerləşən Bakcell mağazası müştərilərə yüksək sürətli və innovativ rabitə xidmətlərini təqdim edir.***

Xankəndi şəhərində yeni mağazanın fəaliyyətə başlamasının şirkət üçün çox önəmli nailiyyət olduğunu vurğulayan Bakcell şirkətinin Baş icraçı direktoru Klaus Müller bildirib: "Əsas məqsədimiz Qarabağ və Şərqi Zəngəzur bölgələrini qısa müddət ərzində ölkənin ən sürətli şəbəkəsinə qoşmaqla Bakcell şirkətinin innovativ məhsullarını bütün abunəçilərə təqdim etməkdir".




Qeyd edək ki, Bakcell şirkəti işğaldan azad olunmuş ərazilərdə şəbəkəsinin genişləndirilməsinə 23 milyon manat həcmində investisiya yatırıb. Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran kimi yaşayış məntəqələrinin mobil şəbəkə ilə əhatə edilməsini qısa zamanda təmin edib. Həmçinin, Şuşa, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın rayonlarının əhalinin məskunlaşdığı və infrastruktur işlərinin aparıldığı ərazilərdə Bakcell şəbəkəsi abunəçilərə təqdim edilib.






Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Qərb Azərbaycanı istəmədiyi qərarlar verməyə məcbur etmək istəyir"

## Rusiya XIN keçmiş müavini Andrey Fedorov: "Onlar həddindən artıq suveren ölkə olan Azərbaycanın mövqelərinin daha da güclənməsinə imkan vermək istəmirlər"

***Rusiya XIN rəhbərinin keçmiş müavini (1990-1991) Andrey Fedorov "Moskva-Baku" portalına müsahibəsində Qərbin niyə birdənbirə açıq şəkildə Azərbaycana qarşı kin bəsləməyə başladığı haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

**- Andrey Vladimiroviç, ötən ilin sentyabrında ərazilərini**





**tamamilə qaytardıqdan sonra ABŞ və Aİ-də bir struktur kimi Azərbaycana münasibətdə mənfi tendensiyalar yaranıb. Biz ABŞ-dan Azərbaycana qarşı tənqidlər və sözün əsl mənasında təhdidlər gördük. Fransadan, Aİ-dən, xüsusən də bir gün əvvəl Bakıya qarşı hədə-qorxularını dilə gətirən Avropa diplomatiyasının rəhbəri Borreldən davamlı "qətnamə" və sanksiyalarla hədələmələri də həmçinin...**

- Təbii ki, bunların hamısı siyasiləşdirilmiş bəyanatlardır - guya Azərbaycanın Qarabağda keçən ilin sentyabr vəziyyəti ilə bağlı humanitar hüququ pozub. Və anlamaq lazımdır ki, Qərbin Azərbaycana qarşı bu cür ritorika, bu cür addımları yaxın gələcəkdə də aktiv şəkildə davam edəcək. Çünki Azərbaycanla Ermənistan arasında münasibətlərin yekun sülh müqaviləsi formasında rəsmiləşdirilməsində maraqlı olmayan xeyli sayda qüvvələr, şəxslər, strukturlar var.

Və bu, Azərbaycanı siyasiləşmiş tənqidlər səsləndirən hər bir ölkənin milli maraqları məsələsi deyil, siyasətin şərhi məsələsidir. Çünki, məsələn, Fransa üçün erməni məsələsi tarixi səbəblərə görə xüsusi əhəmiyyət kəsb edir. Digər Qərb ölkələri üçün bu daha az əhəmiyyət kəsb edir. Amma bəzi Qərb dövlətləri, xüsusən də Böyük Britaniya başa düşürlər ki, Cənubi Qafqazda vəziyyətin yekun sabitləşməsi onların maraqlarına cavab vermir. Onlar bu bölgənin bərbad vəziyyətdə olmasını istəyirlər. Bəziləri Azərbaycana beynəlxalq təzyiqlərdə maraqlıdır. Yəni, belə demək olar ki, regionda vəziyyət bərbad vəziyyətdədir. Çünki istənilən dayandırılmış dövlət manevr üçün yer buraxır. Qərb regionda öz təsirini saxlamaq istəyir. İndi, təbii ki, söhbət qisasdan yox, qeyri-müəyyənlikdən gedir. Amma Azərbaycanı Bakının qəbul etmək istəmədiyi bəzi qərarlar verməyə məcbur etmək istəyirlər. Onlar üçün həddindən artıq suveren ölkə olan Azərbaycanın mövqelərinin daha da güclənməsinə imkan vermək istəmirlər.

Bu vəziyyətdə Rusiya həmişə olduğu kimi manevr edir və regiondakı rolunu qoruyub saxlamağa çalışır. Və bu gün hamı manevr etmək məcburiyyətindədir. Lakin Ukrayna böhranı fonunda Cənubi Qafqazın prioriteti arxa plana keçib.

Moskva indi həm Əliyevi, həm də Paşinyanı razılığa gəlməyə və az-çox stabil olacaq sülh müqaviləsi imzalamağa inandırmağa ümid edir. Və bundan sonra digər məsələlərlə məşğul olmağa çağırır.

**- Ona görə də Sergey Lavrov dedi ki, Azərbaycan Rusiya ərazisində sülh sazişi imzalamağa hazırdır, lakin nazir deyib ki, Ermənistanla necə olacaq, aydın deyil...**

- Bu gün Ermənistanla bağlı vəziyyət çox ağırdır. Çünki Ermənistan rəhbərliyi bundan sonra nə edəcəyini və hansı istiqamətə gedəcəyini hələ müəyyənləşdirməyib. Təhlükəsizlik sferasında Rusiya ilə nəhayət qırılacaq, ya yox. Problem ondadır ki, ən azı mənim bildiyimə görə, Ermənistan rəhbərliyi nəhayət Qərbin Ermənistana sabit hərbi-siyasi təhlükəsizlik təminatları verib-verməyəcəyinə dair qərar vermək üçün daha ay yarım gözləmək istəyir - bu zəmanətlərin Fransa, ABŞ-dan olmasını arzulayaraq.

Ermənistan artıq KTMT-yə üzvlük məsələsini faktiki olaraq dayandırıb: onlar strukturun iclaslarında iştirak etmirlər, lakin hələlik rəsmi olaraq orada qalırlar. Və bütün bunlar həm də Bakı ilə sülh müqaviləsinin imzalanmasına və bütün mübahisələrin yekun həllinə təsir edir.

**- Bu gün həm amerikalılar, həm də ingilislər Ermənistanla hərbi-müdafiə əməkdaşlığını gücləndiriblər...**



- Bəli, bu gün söhbət Qərbin Ermənistanın təhlükəsizliyinə hərbi təminat verməsindən gedir. Mən ABŞ və digər Qərb tərəfdaşlarından rəsmi şəkildə təhlükəsizlik zəmanəti alan Ermənistanın Bakı ilə söhbətinin tonunu dəyişmək imkanı əldə edəcəyinə inanan bəzi amerikalı həmkarların məntiqini bilirəm.

**- Yəni onlar artıq açıq şəkildə Ermənistanın tərəfinə keçiblər?**

- Qərb indiki vəziyyətdə Ermənistandan istifadə etməyə çalışır və artıq bu ölkənin vəziyyətindən öz xeyrinə istifadə edir.

**- Həqiqətən Qərb Ermənistana təhlükəsizlik zəmanəti verə və onu silahlandıra bilərmi?**

- Əlbəttə. Bacararlar, edə bilərlər. Amma bu, amerikalıların dəfələrlə danışdıqları məsələnin həllini tələb edir- Ermənistanın KTMT-dən çıxması. Və bu strukturdan çıxmaq avtomatik olaraq Rusiya hərbi bazasının Ermənistanın Gümrü ərazisindən çıxarılmasını nəzərdə tutur, baxmayaraq ki, onun Ermənistan ərazisində yerləşdirilməsi ayrıca ikitərəfli razılaşma ilə müəyyən edilir. Bu baza Rusiya üçün çox simvolikdir. Baza olmasa, Ermənistan ərazisində təhlükəsizliyin təminatçısı kimi Rusiya da olmayacaq. Amma Moskva üçün bu gün bu istiqamətdə İrəvana təsir etmək asan deyil. İqtisadiyyat vasitəsilə Ermənistana yumşaq təzyiq göstərmək cəhdləri isə həmişə ictimai olmasa da, kiçik qalmaqallara gətirib çıxarır.

**- Bu gün Qərbdə Azərbaycanı təhdid edənlərin hamısı indi real fəaliyyətə keçə bilərmi: məsələn, sanksiyaların tətbiqi?**

- Məncə, indiki mərhələdə yox. Amma əgər Qərb Ermənistana təhlükəsizlik zəmanəti verirsə, bəli, bu mümkündür. Amma İrəvan Qərbin xeyrinə aydın seçim edərsə. O vaxta qədər hər kəs gözləmə mövqeyində olacaq.

- Amma indi deyirlər ki, Aİ-də üzv ölkələrin yanaşması birtipli deyil- bəziləri ümumi Qərb təzyiq tendensiyalarına daha çox, bəziləri daha az reaksiya verir...

- Əlbəttə. Amma nə qədər ki, Ukrayna var, Cənubi Qafqaz Qərbin dominant gündəmində deyil. Və ancaq Borrell kimi ayrı-ayrı adamlar olacaq ki, onlar vaxtaşırı "Azərbaycan" məsələsini qaldıracaqlar. İrəvan qərar verənə qədər Azərbaycan məsələsi bütövlükdə Avropa İttifaqı üçün aktual məsələyə çevrilməyəcək.

Təbii ki, Borrell Avropa diplomatiyasının rəhbəri kimi şəxsi nöqteyi-nəzərini çatdırmır. O, Böyük Britaniya və Fransanın maraqlarını əks etdirir.

**- Bu səbəbdəndir ki, Azərbaycan son vaxtlar Ermənistanla danışıqlarda Qərb platformalarının vasitəçiliyindən imtina edir?**

- Bəli. Çünki aydındır: Azərbaycan bu platformalarda çox rahat olmayacaq. Yumşaq desək. Eyni zamanda, bu gün Azərbaycan və Rusiya müəyyən dərəcədə barrikadaların eyni tərəfindədir. Rusiya Bakı ilə İrəvan arasında sülh və sabitlik üçün bütün hüquqi prosedurların başa çatdırılmasının zəruriliyi baxımından Azərbaycanı dəstəkləyir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
26 yanvar
2024-cü il

# Bəzi gənclər niyə xaricə üz tutur?

*"Ümumiyyətlə dünyanın hər yerində öz ölkəsindən çıxıb başqa ölkədə təhsil alıb və tək tənha öz işini quran insanların uğur hekayələri hər kəsi təəccübləndirir". Bu sözləri SİA-ya açıqlamasında yazıçı, kulturoloq, analitik ekspert Aydın Xan Əbilov bildirilib.*

## SƏBƏBLƏR BƏLLİ OLDU



Onun sözlərinə görə, bu normal bir haldır və insanların, xüsusən də gənclərin, yeni nəslin internetin dünyaya açılışından sonra dünyanın aparıcı universitetlərinin nüfuzunu, reytinqlərini görüb ora can atmaqları çox önəmlidir: "Bu proses həmişə baş verib, hətta dövlət səviyyəsində stimullaşdırılıb. Hələ Ümummilli lider Heydər Əliyevin vaxtında Rusiyanın ən mötəbər universitetlərinə, ali məktəblərinə bizim azərbaycanlı gənclər göndərilirdi. Onlar hətta rus dili bilmirdi amma orada onlar məcbur edilirdi ki, rus dilini öyrənsinlər. Daha sonra aparıcı universitetlərdə Azərbaycanın inkişafına, intellektinə, elminə, təhsilinə, sənayesinə, kənd təsərrüfatlarına maraqlı ola biləcək mütəxəssis kimi formalaşıb geri dönsünlər. Bu proses müstəqillik dönəmində yenə də Heydər Əliyev tərəfindən davam etdirildi. Lakin dövlət səviyyəsində, proqram formasında 1990-cı illərin II yarısında Prezident İlham Əliyev tərəfindən təsdiqləndi və hər il minlərlə gənc Azərbaycanın dövlət büdcəsi hesabına, dövlətin müxtəlif kadr potensialında olan boşluğu doldurmaq üçün xarici ölkələrin nüfuzlu universitetlərinə göndərildi. İngilis, rus, türk dilini əla bilən gənclərimiz müxtəlif dil imtahanlarından sonra dünyanın nüfuzlu universitetləri tərəfindən pulsuz təhsil qrantı almaqla o ölkələrə dəvət olunurdu. O universitetlərin hətta bir neçə universitetlərin seçim imkanı olan şəxs kimi, nüfuzlu ali məktəblərdə təhsil almağa başladılar.

Gənclərin xaricə getməsi həmişə maraqlı olub, çünki gənclik hərəkət, dinamika deməkdir. Hara getsələr də əvvəl-axır Azərbaycana gələcəklər. Hara getsələr, harada oxusalar da əvvəl-axır Azərbaycan üçün nəsə edə bilərlər. 2007-ci ildə cənab Prezidentin çox maraqlı fikiri var idi. Biz gənclər təşkilat sədrlərini qəbul edərkən belə bir söhbət getdi ki, Azərbaycanda xaricə göndərilən, dövlət hesabına oxutdurulan bu tələbələr hətta Azərbaycana qayıtmasalar belə, orda qalıb işdəsələr yenə də Azərbaycanın səfirləridir. Amma biz elə bir şərait yaratmalıyıq ki, o tələbələr geri qayıtsın və burada öz biliklərini, öyrəndiklərini tətbiq etsinlər. Lakin dünya tez dəyişir, müxtəlif proseslər baş verir. Sonralar dövlətin bir tendensiyası oldu ki, əgər hər hansı bir tələbəyə maya qoyulursa, xaricdə o nüfuzlu universitetlərində oxuyubsa, bu maya çox bahadır. Bildiyim qədərin ilə 30-200 minə qədər ola bilər və onu geri qaytarmaq lazımdır. Yaxud kimsə qayıtmaq istəmirsə o həmin ölkədə qalıb işləyirsə, həmin pulu geri qaytarmalıdır ki, biz digər istedadlı tələbələrimizlə xaricdə oxumaq istəyən yenilikçi gənclərimizlə dünyanın aparıcı universitetlərinə göndərək. Orada onlar öz təhsillərini, ali savadlarını artıra bilsinlər. Bu məncə daha məntiqlidir, çünki büdcə hesabına, mənim, sizin, digərlərinin büdcəyə ödədiyi vergi hesabına, xaricə göndərilən bizim xalqın nümayəndəri istedadlıdırlar.

Amma biz öz pulumuzla oxudururuq və daha sonra o orada qalıb, həmin ölkənin inkişafına xidmət edirlərsə biz nə üçün onlara maya qoymalıyıq? Əslində burada bir məntiq var. Həmin şəxslər əgər yoxdursa belə onlar müqavilə şərtlərini yerinə yetirməli, kağıza imza atmalıdırlar ki, xaricə oxumaq üçün gedib oxumurlarsa həmin kapitalı geri qaytarmalıdırlar. Bu dövlət proqramının bir hissəsi olmalıdır, bəlkə də var. Digər bir təbəqə də vardır ki, bunlar atestatla Rusiya, Ukraniya, Gürcüstan, Şimali Kipr, Türkiyə kimi ölkələrin müxtəlif özəl universitetlərinə gedib qəbul olurlar. O tələbələrin çoxu xüsusən də oğlan uşaqlarıdır. Onlar orta məktəbi yaxşı oxumurlar və yaxud da hansısa səbəblərdən imtahan verib qəbul ola bilmirlər və Azərbaycana gəlirlər.

Bilirsiz ki, ADA universiteti dünyada tanınmış universitetdir, Ali Neft Məktəbi, Neft Akademiyamız, o cümlədən də bir çox özəl universitetlər var ki, artıq özəl səviyyəli təhsil verə bilirlər. Eləcə də BDU-nun get-gedə nüfuzunun artması davam edir. Amma daha yüksək səviyyəli bir universitet texnologiyaları qurmaq lazımdır ki, bizim gənclərimiz xaricdə yox, məhz burada oxusunlar. Eyni zamanda mütəxəssislərin beyin ixracatına da biz şərait yaratmalı və motivasiya verməliyik. İT, avto-nəqliyyat, kosmik sənaye var ki, bura Azərbaycan ya qlobal iqtisadiyyatın bir halqası olaraq daxil olmalıdır və yaxud bizim mütəxəssisləri ora püxtələşdirəndən sonra geriyə qaytarıb burada həmin o sahələri inkişaf etdirmək, yaratmaq lazımdır. Düşünürəm ki, yaxın gələcəkdə biz bunu görəcəyik və eyni zamanda mütəxəssislərimizə şərait yaratmalıyıq. İşləyən mütəxəssislərin məvacibi böyük olmalıdır ki, gənclər xarici ölkələrdə oxumağa, işləməyə üz tutmasınlar, orada işlərini yox Azərbaycanda işlərini qurub, inkişaf etdirsinlər.

**Sevilin Abbasova**


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# İntihara meyilli olan insanlar BƏLLİ OLDU



*"Son illərdə dünyada və Azərbaycanda cəmiyyət getdikcə mürəkkəbləşir". Bu sözləri SİA-ya açıqlamasında şair, publisist, sosioloq, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, iqtisad elmləri doktoru (1978); "Ahəngyol" elmi-fəlsəfi konsepsiyasının yaradıcısı Əhməd Qaşəmoğlu deyib.*

Sosioloq bildirib ki, mürəkkəbləşən cəmiyyətdə insanların əksəriyyəti psixoloji cəhətdən həssaslaşır: "Bir qrupunda müəyyən ruhi nasazlıqlar yaranır. O demək deyil ki, ruhi nasazlıq yaranırsa, onlar intihar edə bilərlər. Hər adam intihar edə bilmir. Bəzi insanlar var ki, anadan olanda onlarda bu kompleks olur. Belə insanları təcrübəli insanlar üzdən də fərqləndirə bilir. Çünki intihara meyilli adamların üz quruluşunda müəyyən cizgilər olur. O cizgidə olanların da hamısı intihar eləmir. O adamlar intihar edir ki, cəmiyyətdə həm özlərini təsdiq edə bilmirlər, həm də gələcək haqqında təsəvvür, gələcəyə inamları yoxdur. Gələcəyə pessimist ovqatla baxır, gələcəkdən qorxurlar. Öz gələcəklərini aydın görmürlər. Normal həyatda da özlərini təsdiq edə bilmirlər".

O, əlavə edərək deyib ki, bu adamları əvvəldən müəyyənləşdirmək olar: "Əgər intihara meyillilik cizgiləri üzündə varsa, özünü cəmiyyətdə nə qədər təsdiq edə bilir, söhbət edərkən gələcək haqqında nələr danışır, bunlarla həmin adamın intihar etmək ehtimalının olduğunu bilmək olar. Onlara xüsusi yanaşıb bu yoldan çəkindirmək mümkündür. Önə görə cəmiyyətdə bu sahədə bəzi işlər görülməsinə ehtiyac var".

**Söylü Ağazadə**

MÜNASİBƏT


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700